

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Türk Birliyi və vahid əlifba



12

SƏS

№ 173 (7098)

21 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Xankəndidən verilən mesajlar...



2

*Prezident İlham Əliyev: "Dünyada da bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olub"*

# İsrail-Livan, yoxsa III Dünya savaşı?



*Livanda Hizbullah fəallarının istifadə etdiyi mobil telefonlar da daxil olmaqla rabitə cihazları ardıcıl ikinci gün kütləvi şəkildə partladıldı. Livanın Səhiyyə Nazirliyi axşam saatlarında məlumat yayıb ki, azı 12 nəfər ölüb, 500-dən çox insan yaralanıb. Hizbullah yenidən İsraili günahlandırıb və qisas alacağına söz verib.*

10

## Dövlət Suverenliyi Günü - QÜRUR GÜNÜ!




7

## Aleksey Fenenko: "Ermənistan tam saziş imzalamasa, Azərbaycan onu məcbur edəcək"




14

## Erməni terrorizmi: qətliam və terrorların acı nəticələri



4

## Sülh və müharibə: İşıq qaranlığa qalib gələcəkmi?



15

## Tələbələr niyə universitetə buraxılmır?




16

# Xankəndidən verilən mesajlar...

***30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız, Şərqi Zəngəzurumuz müasir dünyanın ahəngində qurulur, yeni həyat, nəfəs verilir. Əsrlərin yaddaşında özünə yuva qurmuş əzəli torpaqlarımız tarixi, daşı, qayası, mədəniyyət abidələri, dini ocaqları hər zaman möhtəşəmliyi ilə diqqətdə olmuş və qürurla səhifələdiyimiz daş abidələrdə öz əksini tapmışdır. Bu gün Zəfər qazanan BÜTÖV və SUVERƏN AZƏRBAYCAN tarixin dönəmində inkişaf yolu keçmiş qeyd etdiyimiz məkanlarda böyük quruculuq-abadlıq işlərinə başlayıb.***

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə səfərləri və burada görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, burada görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Böyük Qayıdışın yüksək səviyyədə



*Prezident İlham Əliyev: "Dünyada da bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olub"*





reallaşmasına xidmət edən addımların miqyasının genişliyi diqqətdən kənarda qalmır. Qarabağın tacı Şuşada, Ağdamda, Laçında və digər ərazilərdə aparılan bərpa-quruculuq işlərinin vüsəti artır. Verilən göstərişlər vaxtında və yüksək səviyyədə yerinə yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 19-da Ağdama, Şuşaya, Xankəndinə səfəri və görülən işlərlə tanışlığı, təməlqoyma mərasimlərində iştirakı buranın gələcək gözəl həyatına söykənir.

Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğuru kimi tarixdə yer aldı. Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə edildi.

### “VƏTƏN MÜHARİBƏSİ VƏ ANTİTERROR ƏMƏLİYYATI KEÇİRİLƏRKƏN BİZİM 3200-DƏN ÇOX QƏHRƏMAN ŞƏHİDİMİZ ŞƏHADƏT ZİRVƏSİNƏ UCALMIŞDIR”

Vətən müharibəsindəki Zəfərin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz suverenliyini tam bərpa etdi.

2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev ”Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcəkdir. ”Bu günü biz birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 Sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək”. Bu sözləri Prezident İlham Əliyev Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündə söyləyib. ”Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi”, - deyə dövlətimizin başçısı onu da vurğulayıb ki, 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr - Dövlət Suverenliyi Günü idi. Prezident İlham Əliyev Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündə hərbçilərimizin qəhrəmanlığından, peşəkarlığından danışıb: ”Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman şəhidimiz şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir.”

### ”GÜCLÜ İRADƏ, PEŞƏKARLIQ, VƏTƏNPƏRVƏRLİK, MİLLİ RUHDA TƏRBİYƏ OLUNAN GƏNC NƏSİL OLARSA, HEÇ BİR QÜVVƏ O XALQIN QABAĞINDA DURA BİLMƏZ”

Dövlətimizin başçısı dünya hərb tarixində 44 günlük müharibədə şanlı Ordumuzun həyata keçirdiyi əməliyyatların oxşarının olmadığını bildirib. ”44 gün ərzində bu çətin coğrafiyada düşmənin 5-6, bəzi yerlərdə 7 müdafiə xəttini yararaq hər gün irəliyə getmək, itkilər verərək aşağıdan yuxarıya qalxmaq, Şuşa kimi alınmaz qalanı sıldırım qayalara dırmaşaraq ancaq yüngül silahlarla azad etmək, - müasir tarixdə hansı ordu buna bənzər qəhrəmanlıq, peşəkarlıq göstərmişdir?! Bu, həqiqətdir”, - deyə Prezident qeyd edib: ”İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, nəinki öz milli qürurunu bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz ”.

İşğal dövründə keçmiş köçkünlərlə mənim çoxsaylı görüşlərim olmuşdur. Bildiyiniz kimi, onların yaşayış şəraitini yaxşılaşdırmaq üçün dövlət bir çox önəmli layihələr icra etmişdir. Biz demək olar ki, hər il 15-20 min keçmiş köçkünü yeni qəsəbələrə, evlərə, mənzillərə köçürürdük və beləliklə, onların yaşayış səviyyəsi yaxşılaşırdı. Təqribən 300 mindən çox keçmiş köçkün artıq o yataqxanalardan, o yararsız yerlərdən, uşaq bağçalarından köçürülmüşdü. Ancaq, eyni zamanda, onlarla hər dəfə görüşəndə deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, gün gələcək və azad edilmiş torpaqlarda sizin üçün daha gözəl şərait yaradılacaq. Mən buna inanırdım, onlar da inanırdılar, bütün xalqımız buna inanırdı, bu fikirlə yaşayırdı. Amma, eyni zamanda, illər keçdikcə mən görürdüm ki, onların ümidləri yavaş-yavaş azalır. Bu da təbiidir, çünki işğal təxminən 30 il davam etdi.

Minlərlə, on minlərlə keçmiş köçkün bu Qələbə gününü görə bilmədi, həyatdan getdi. Təbii olaraq dünyada gedən prosesləri təhlil edərək mövcud ədalətsizliyi, beynəlxalq hüququn işləməməsini, böyük dövlətlərin Ermənistanın arxasında dayanmasını, bütün bunları - geosiyasi vəziyyəti təhlil edərək ola bilər kimsə belə fikrə gələ bilərdi ki, bu işğalla biz əbədi yaşamalıyıq. Biz bütün bu tezisləri, bütün bu paradiqmaları darmadağın etdik. Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz - nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, - çünki bütün təpələrdə onlar yerləşmişdi, - nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Bax, bütün bu amillər bir yerdə olanda, o xalqın qabağında heç kim dura bilməz”.

### ”BURA BİZİM TARİXİ TORPAĞIMIZDIR VƏ ƏMİNƏM Kİ, BUNU AZƏRBAYCANDA BİLMƏYƏN YOXDUR, DÜNYADA DA BUNU BİLİRLƏR”

1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Xocavənd şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizləndi.

***Ardı Səh. 3***

# Xankəndidən verilən mesajlar...







Əvvəli-Səh-2

Müasir Azərbaycan ordusu öz gücünü, məharətini, peşəkarlığını istənilən vəziyyətdə nümayiş etdirir. "Xankəndidən azərbaycanlılar qovuldu, ondan sonra - müstəqillik elan olunandan dörd ay sonra 1992-ci ilin fevralında Xocalı soyqırımı törədildi, 1992-ci ilin may ayında Şuşa, Laçın işğal olundu, 1993-cü ilin aprelində isə Kəlbəcər. Beləliklə, xəritəyə baxsanız görərsiniz ki, bütün böyük bir bölgə nəzarətdən çıxdı və faktiki olaraq Ermənistanla Qarabağ bölgəsi arasında coğrafi əlaqə yaradıldı. Bax, bu idi bizim tariximiz" – deyə Prezident bildirib: "Bura bizim tarixi torpağımızdır və əminəm ki, bunu Azərbaycanda bilməyən yoxdur, dünyada da bunu bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olubdur, onun adı onu göstərir - Xanın kəndi. Sadəcə olaraq, yenə də Azərbaycana, xalqımıza qarşı düşmənçilik siyasəti nəticəsində uzun illər ərzində bizim nəzarətimiz burada ya zəif idi, ya da ümumiyyətlə, yox idi. Çünki XIX əsrin əvvəlində bağlanmış üç müqavilə – "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələri faktiki olaraq sonrakı işğalı da şərtləndirdi. Məhz bu müqavilələrdən sonra heç vaxt Qarabağ torpağında yaşamayan ermənilər kütləvi surətdə İrandan və Şərqi Anadoludan buraya köçürülmüşdür və bu, həqiqətdir, bu, dəqiq tarixdir. XX əsrin əvvəlində isə xalqımıza qarşı növbəti düşmənçilik addımları atılmışdır".

### XANKƏNDİDƏ BƏRPA QURUCULUQ İŞLƏRİ

Bu gün Xankəndidə yeni dövr başlayıb. Dövlət başçısı səfəri zamanı Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanış olub. Ümumi sahəsi 5 min kvadratmetrə yaxın olan hotel beş mərtəbə və zirzəmi qatından ibarətdir. Hoteldə müxtəlif tipli 44 otaq olacaq. Burada ən müasir iaşə məkanları – "lobby lounge", kafe, açıq və qapalı restoranlar da fəaliyyət göstərəcək.

"Xankəndi" Mehmanxana Kompleksinə aid olan "Bulud" hotelində 50 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub. Xankəndinin mərkəzində yerləşən "Bulud" hotelindən açılan gözəl mənzərə qonaqların zövqünü oxşayacaq.

Sentyabrın 19-da Azərbaycan Prezidenti Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak edib. Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Nizami Gəncəvi adına Xankəndi şəhəri 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı





təmiri nəzərdə tutulub.

Bu təhsil ocağı böyük tarixə malikdir və 1945-ci ildən Azərbaycan məktəbi kimi fəaliyyət göstərib. Məktəbin səmərəli fəaliyyətinin təmin edilməsinin zəruriliyi nəzərə alınaraq Xankəndi sakinlərinin böyük bir qisminin müvəqqəti məskunlaşdığı Bakı şəhərinin Sabunçu rayonunun Ramana qəsəbəsində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 dekabr tarixli Sərəncamına əsasən 300 şagird yerlik yeni bina tikilib. Xankəndidə 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmirinə bu ilin mayında başlanılıb. Məktəbin layihəsi 0,67 hektar ərazini, 3760 kvadratmetr ümumi sahəni əhatə edir. Məktəbdə 11 sinif otağı, kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 2 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, həmçinin yeməkxana yaradılıb.

Dövlətimizin başçısı Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub. Xankəndi Dövlət Dram Teatrının binası 1932-ci ildə Azərbaycan Hökuməti tərəfindən tikilib istifadəyə verilib. 1949-cu ildə binanın konstruksiyasına müəyyən əlavələr olunub. Bina sovet dövrü memarlığının əsas elementlərini özündə əks etdirir. Teatrın binası XX əsr abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib.

Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışı burada aparılan irimiqyaslı layihələrin davamlı xarakter aldığına söykənir. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmiri nəzərdə tutulmuşdu. Bu ilin mayında Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmirinə başlanılıb. Məktəbəqədər təhsil müəssisəsinin layihəsi 80 yerlik olmaqla 0,21 hektar ərazini, 1340 kvadratmetr ümumi sahəni əhatə edir. Burada 4 qrup otağı, tibb otağı, metodiki kabinet, mətbəx, akt və idman zalları və camaşırxana yaradılıb.

### "QARABAĞ UNİVERSİTETİ BİZİM APARICI ALİ MƏKTƏBLƏRDƏN BİRİNƏ ÇEVRİLƏCƏKDİR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib. Bildiyimiz kimi, Prezident İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalamışdır. Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir. Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olub. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb. "Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər", - deyə Prezident bildirib.

Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman - əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun!

***N. ƏLƏDDİNQIZI***

# Erməni terrorizmi: qətliam və terrorların acı nəticələri




## Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpünün partladılmasından 33 il ötür

***Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərdən biridir ki, müasir dünya bunun acı nəticələrini hələ də yaşamaqdadır. Terror aktları insan təlafatları ilə nəticələnir və güclü psixoloji gərginliklər yaşanılır. Terrorizm haqqında birmənalı tərif mövcud olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinəgörə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır.***

Əlbəttə ki, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycan da terrordan əziyyət çəkən dövlətlər sırasındadır. Zaman-zaman Azərbaycana qarşı ermənilər tərəfindən terror aktları törədilmiş və bunun acı nəticələrini yaşamışıq. Düz 33 il bundan əvvəl 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpü partladılmışdır. Cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur.

### ŞƏHƏRDƏ TERROR, SUİ-QƏSD VƏ HÜCUM AKTLARI

Bu o illərdə Xankəndidə törədilmiş ilk və son terror deyildi. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, şəhərdə terror, sui-qəsd və hücum aktları kifayət qədər törədilib. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Bu, Dağlıq Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb olub. Bundan sonra sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərib. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki. 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı-şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf vəƏləmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə olanların adları məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir.

Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, gülləəyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən ”PAZ-3205” dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. 1994-cü il 18 mart tarixində Xankəndi səmasında erməni terrorçuları tərəfindən İranın Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 36 nəfər həlak olmuşdur.



### 1923-CÜ İLİN SENTYABRINDA XANKƏNDİ STEPAN ŞAUMYANIN ADI İLƏ ”STEPANAKERT” ADLANDIRILIB

Əlbəttə ki, bu təkcə Azərbaycanın bir kəndində, bir şəhərində ermənilər tərəfindən törədilən terror aktıdır. İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Vurğulamaq yerinə düşər ki, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də ”Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması-haqqında” dekret verib və həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunub. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə ”Stepanakert” adlandırılıb. Bu, erməni özbaşınalığı, erməni saxtakarlığıdır. Tarixi ədalət hər zaman bərpa olunur. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetiinin qərarıiləşəhərin əvvəlki, ”Xankəndi” adı bərpa edilib.

Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçirmişdilər. 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxayəlizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi, Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu ermənipərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də ”Şuşa-Bakı” marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə ”Noraşen-Bakı” yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür. Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur. Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Müharibə getməyən ərazilərimizdə Gəncədə, Mingəçevirdə, Bərdədə yaşından asılı olmayaraq uşaq da, gənc də. qoca da bu terrorların acı nəticəsini yaşamış oldu. Neçə-neçə qurbanlarımız oldu. Bu erməni faşist ideolgiyasıdır. Faşist düşmənin təfəkkürü, mövqeyidir ki, bu terrorlardan xalqımız əziyyət çəkir.

***N. Bayramova***

# Azərbaycan sülhsevər dövlətdir

Azərbaycan sülhsevər və suveren bir dövlətdir. Hər zaman ölkələr arasında dostluq əlaqələrinin möhkəmləndirilməsində xüsusi önəm verir. Dünyada bəşəriyyətin ehtiyac duyduğu ən qiymətli vasitə sülhdür. Əsrlər boyu bəşər övladı sülh şəraitində yaşayıb-yaratmaq, dünya xalqları ilə əmin-amanlıq şəraitində əlaqə qurmaq, əməkdaşlıq etmək arzusunda olub və bu gün də belədir. Sülhün hökm sürdüyü məkanda qurub-yaratmaq, dinclik, sosial-iqtisadi və mədəni inkişaf var. Müasir və modernləşən Azərbaycan bu gün sülhməramlı niyyəti ilə dünyaya nümunədir. Ölkəmizdə hökm sürən həmrəylik, birgəyaşayışı tolerantlıq mühiti bəşəriyyətə sülh şəraitində yaşamaq üçün bir mesajdır. Sülh təmin olunmadığı halda insanlar qorxu və vahimə içərisində psixoloji gərginliklər yaşamış olurlar. Uzun illər idi ki, Ermənistan-Azərbaycan münaqişəsi həll olunmamış qalırdı. Dünyanın ən tolerant, sülhsevər xalqı olan Azərbaycan Ermənistanın təcavüzünün ağrıacısını yaşayırdı. 30 ilə yaxın işğalda olan torpaqlarını azad etmək məqsədi ilə sülh danışıqları aparsa da, bu nəticəsiz qaldı. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqda idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq tribunalardan respublikamızın münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar




olduğunu dəfələrlə bildirsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərirdi. Ermənistan, nəinki atəşkəsə əməl etmir, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam edirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən və beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görsə də, Ermənistan çirkin niyyətindən əl çəkmədi. Nəhayət, Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad etdi. Tarixi ədalət bərpa olundu. Bu gün dünyada sülhə çağırışlar ediriksə, onda dinc sakinlərin - qocaların, qadınların və körpə uşaqların qətlə yetirilməsinə biganəlik göstərilməməlidir.

### AZƏRBAYCAN GERÇƏKLİKLƏRİ

Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir və bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir, bu siyasət Azərbaycanın beynəlxalq aləmdə imicini artırır. Ermənistanla müharibədə minlərlə şəhid verməyimizə və bir milyon qaçqınımızın olmasına, dini abidələrimizin dağıdılmasına baxmayaraq, erməni kilsəsi hələ də Azərbaycanın paytaxtı Bakının mərkəzindədir.

Fərqli dinlərə və inanclara mənsub insanların əsrlərdən bəri qarşılıqlı anlaşma şəraitində yaşadığı Azərbaycanın 30 ilə yaxın bir zamanda erməni hərbi birləşmələrinin təcavüzkar siyasəti nəticəsində torpaqlarımız işğalda qalmış və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır.

### AZƏRBAYCAN BÖLGƏDƏ SÜLH VƏ SABİTLİYİN TƏMİN OLUNMASINA SADİQDİR

Azərbaycan rəhbərliyi humanitar fəlakətlərin qarşısının alınması, öz yurdlarından didərgin düşmüş insanlara dünyanın istənilən yerində hərtərəfli dəstək verilməsi istiqamətində təsirli addımlar atıb və bu davam edir. Dünya insanını sülhə və ədalətə çağırır. Sülh və ədalət olan məkanda inkişaf da olar. ABŞ-da və Avropa məkanında dözümsüzlük, ekstremizm və ksenofobiya kimi cərəyanların baş qaldırdığı halda, Azərbaycan reallıqları həqiqətən də, öyrəniləcək bir modeldir. Özbaşınalıqlar, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması, irqi ayrı-seçkilik, digər dövlətlərin daxili işlərinə qarışma və bu kimi demokratiyaya zidd hərəkətlər, artıq sülhə xidmət etmir. Bu dövlətlərin demokratik dəyərlərə sadiqliyi şübhə doğurur. Bu gün Azərbaycan yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq, hər kəsi sülhə səsləyir. Dünyada analoqu olmayan bir faciəni - Xocalı faciəsini yaşayan bir xalq dünyada belə bir soyqırımının təkrarlanmasını istəmir, torpaq uğrunda şəhidlər verən Azərbaycan dünyaya sülh toxumu səpir. Qoy hər yandan sülh qoxusu gəlsin, sülh və birgəyaşayış təmin olunsun. Münaqişə ocaqlarının alovlanmasının qarşısı alınsın. Buna dünya həmrəylik göstərməlidir.

Qloballaşan dünyada sülhün olması və qorunması vacib hesab olunur. Sülh bugünkü dünyanın, zamanın tələbinə çevrilib. Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginliklər, məhz sülhün bərqərar olunmasını tələb edir. Sülh əlbəttə ki, dövlətlərin birbiri ilə münasibətlərində anlaşma və qarşılıqlı münasibətlər fonunda yaranır və dərinləşir. Müharibələr, zorakılıq, dini zəmində qarşıdurmalar, kəskin münaqişələrin yaranması sülhün pozulmasına rəvac verir. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu baxımdan, müasir dövrdə Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanaraq, sülhsevər siyasətini həyata keçirir. Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Azərbaycan Prezident İlham Əliyev çıxışların birində vurğuladığı kimi, Azərbaycan bölgədə sülh və sabitliyin təmin olunmasına sadiqdir.

***Nəzakət***

# "Sağlam gənclik sağlam ailənin təminatıdır"







***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq sentyabrın 20-də Zaqatala rayonunda "Sağlam gənclik sağlam ailənin təminatıdır" mövzusunda tədbir keçirilib. Əvvəlcə Zaqatala şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Zaqatala rayonu Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.***

Tədbirdə YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Zaqatala Rayon İcra Hakimiyyəti (RİH) başçısının birinci müavini, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri Tofiq Əhmədov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, bu gün qlobal miqyasda əsas çağırışlarından biri narkomaniyaya qarşı mübarizədir. Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində silsilə tədbirlər keçirilir. Əsas məqsəd gəncləri məlumatlandırmaq və maarifləndirmə yolu ilə sağlam gələcəyimizin təmin olunmasına töhfə verməkdir. Qeyd edilib ki, ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir, həmçinin milli-mənəvi dəyərlərin qoruyucusu və ötürücüsüdür. Bu dəyərlərin qorunmasında cəmiyyətin bütün institutları fəal və məsuliyyətli olmalıdır.

Diqqətə çatdırılıb ki, ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasəti gənc nəslin inkişafı, bilik və bacarıqlarını realizə etmələri üçün əlverişli şərait yaratmaqla yanaşı, onların vətənpərvər ruhda formalaşmasını təmin edib. Bu baxımdan, xalqımızın tarixində möhtəşəm səhifə açmış 44 günlük Vətən müharibəsi və bir günlük lokal xarakterli antiterror tədbirləri gənclərimizin vətənpərvərliyini, əzmini bütün dünyaya nümayiş etdirib. Vurğulanıb ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla hər il sentyabrın 20-i Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək. Ötən il cəmi 23 saat 43 dəqiqə davam etmiş və sentyabrın 20-də başa çatmış antiterror əməliyyatları nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirib. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində ölkəmizin suverenliyi tam təmin edilib. Xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycanın Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. İnteraktiv formada davam etdirilən tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.





# Dövlət Suverenliyi Günü - QÜRUR GÜNÜ!

***Artıq bir ildir ki, tariximizin səhifələrinə qızıl hərflərlə yazılan 20 sentyabr xalqımızın həyatında çox önəmli gündür. Çünki həmin gün xalq 30 ildən artıq torpaq həsrətinə birdəfəlik son qoydu. Birgünlük antiterror tədbiri ilə işğal altında qalan torpaqlarımızın son qarışını da azad etdik. Və beləliklə də ərazi bütövlüyümüz və konstitusiya quruluşumuz bərpa olundu.***

Dünən, sentyabrın 19-da dövlət başçısının məlum Sərəncamı ilə 20 sentyabrın Dövlət Suverenliyi Günü kimi təsis etməsi isə ölkədə yenidən bayram əhval-ruhiyyəsi yaratdı. Çünki həmin gün xalqın qürur günüdür. Sərəncamda deyilir: 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

### Bəs Xankəndi, Xocalı, Xocavənd, Ağdərə?

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr tarixli Sərəncamı ilə 20 sentyabr həm də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü" kimi təsis olundu.

Bu sərəncam dörd il əvvəli, İkinci Vətən müharibəsinin sona çatdığı noyabr ayını xatırlatdı mənə. 2020-ci il noyabrın 10-da 44 günlük Vətən müharibəsi üçtərəfli bəyanatın imzalanması ilə başa çatanda, xalq Qarabağın işğaldan azad olunmasını toybayram edəndə bəzi ünsürlər ölkə başçısının rəhbərliyi altında milli ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığı ilə əldə olunan Zəfəri ismin altı halının hər birində hallandırmaqla narazı qaldıqlarını bildirdi, böyük qələbəyə kölgə salmağa çalışdılar. Hansı ki, onlar hər zaman narazıdırlar. Razı qalacaqları gün nə vaxt olacaq, bu, məlum deyil.

Zəfər günündən etibarən yeni mövzu atdılar meydana: bəs Xankəndi, Xocalı, Xocavənd, Ağdərə? Hansı Zəfərdən danışırsınız? Nə üçün müharibə yarımçıq dayandı? Bu necə müharibədir? Bu söz-söhbət o zaman danışılırdı ki, hələ Laçın, Kəlbəcər, Ağdam qarşıdakı mərhələdə qaytarılacaqdı. Və buna da həmin dairələrin nümayəndələri tərəfindən böyük inamsızlıq vardı.

Lakin düşməni 44 gün ərzində tamamilə çökdürmüşdük. Elə bu səbəbdən də ağ bayraq qaldırıb təslim olduğunu bildirmişdi. Laçın, Kəlbəcər və Ağdamın boşaldılması üçün vaxt istəmişdi. Azərbaycan dövləti isə bütün dünyaya humanistliyini nümayiş etdirərək qonşu düşmən dövlətə bütün bu olanlardan, yaşananlardan sonra yenə də insanpərvərliklə yanaşdı və onlara torpaqlarımızdan çıxmaq üçün zaman verdi.

Düşmən 20 noyabrda Ağdamı, 25 noyabrda Kəlbəcəri, 1 dekabrda isə Laçını tərk etdi, torpaqlarımızı geri qaytardı. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun böyük bir hissəsi işğaldan azad edildi. Və həmin torpaqlarda dərhal bərpa işlərinə başlandı ki, 30 il yurd-yuvasından məcburi şəkildə köçkün düşən soydaşlarımız torpaqlarına qayıda bilsin, bir qərinəyə yaxın dövrün hicranının vüsal anı yetişsin.

### 44 gün və 23 saat...

2020-ci ilin 44 günlük Vətən müharibəsində böyük Zəfər əldə etdik. Həmin dövr ərzində "status-kvo"nun cəhənnəmə getdiyini anlamaq bu qədərmi çətin idi, yoxsa buna inamsızlıqdan doğurdu həmin söz-söhbət? Axı "Dağlıq Qarabağ Muxtar Vilayəti" artıq yox idi, dövlətimizin başçısı bunu ləğv etmişdi. Deməli, bu pərdə arxasında gizlənənlərin xülyaları da darmadağın edilmişdi. Qalırdı bircə onların Azərbaycan qanunlarına tabe olmaları-Azərbaycan torpaqlarında bu qanunlar çərçivəsində yaşamaları. Buna isə təbii ki, torpaqlarımızı qurd kimi basmış separatçı-terror qruplaşmaları imkan vermirdi. Onlar yeni münaqişələr yaratmaqla bizim torpağımızda at oynatmaq meyilində idilər.

3 il idi ki, müharibə bitsə də, problemlər davam edirdi: minalanmış ərazilərin xəritəsi verilmirdi, atəşkəs pozulurdu, Qarabağ və Şərqi Zəngəzurda tez-tez terror hadisələri törədilirdi. Bu hadisələrə isə içimizdən olan bəzi ünsürlər yenə də rəngarəng don geyindirir, hələ üstəlik, ermənilərin tərəfində dayanaraq onların nahaq səsinə səs verirdilər.

Bir tərəfdən də Xankəndi, Xocalı, Xocavənd, Ağdərəyə guya ki, canıyananlıq edirdilər. Anlamaq istəmirdilər ki, bu torpaqlar da azad edilən torpaqların sırasındadır. Sadəcə zaman çatmalıdır ki, o yurdlara da bayrağımız sancılsın.

Necə ki, ötən 30 ilə qədər dövrə son qoymağın məqamı yetişmişdi, biz torpaqlarımızı azad etmək üçün hazır olduğumuzu hiss edib müharibə meydanına atılmışdıq, 44 gündə Qarabağın dastanını yazmışdıq, eləcə də zamanın yetişməsi, hadisələrin öz axarı ilə cərəyan etməsi lazım idi ki, bu torpaqlarda da bayrağımız dalğalansın. Lakin bunu anlamayan, bütün bunları hər gün müzakirə edib don geyindirənlər sakitləşmək bilmirdi. Barmaqla sayılacaq qədər olanların hər biri siyasətçiyə, siyasi ekspertə çevrilmişdi. Ağıllarına və ağızlarına gələni danışmaqla guya özlərini xalqa ürəyi yanan kimi qələmə verirdilər. Lakin xalqın onların kim olduğunu əsla unutmayacağını nə üçün yadlarından çıxarmışdılar, bunu da anlamaq bir qədər çətin idi. Bəlkə də bu kimi sayıqlamaları ilə xalqın ürəyini yenidən qazanmaq fikrinə düşmüşdülər, bu da anlaşılmayan bir məsələ idi.

Dövlətimizin başçısı nəyi nə zaman və necə etməyi özünün də vurğuladığı kimi, çox gözəl bilir. Elə bu yüksək bacarığa görə də Azərbaycan xalqı ötən üç il ərzində son 300 illik tarixdə olmayanı edə, qazana bildi: torpağını azad etdi, düşməndən geri aldı. Müharibədən 3 il sonra, 2023-cü ilin 19-20 sentyabrında 23 saatlıq antiterror tədbirləri ilə son qarış torpağımız da düşməndən geri alındı və ərazi bütövlüyümüz bərpa edildi.

### Xankəndi, şəhər günün mübarək!

30 il idi ki, Qarabağdan söz düşəndə başımızı aşağı dikirdik. Çünki biz məğlub xalq idik. Məsələ bizim namus və şərəfimizlə bağlı idi. Süfrəmizin artığı ilə aclığını dəf edən erməni adlı qonşu yanımızdaca özünə yer edə-edə torpaqlarımıza göz dikmiş və məqamı gələndə onu bizdən qoparmışdı. Düşmən 30 il ərzində torpaqlarımızın yeraltı-yerüstü sərvətlərini də daşıyıb dünya bazarlarına çıxarmış, satıb, sovmuşdu.

30 il idi ki, minlərlə soydaşımız köçkün həyatı yaşayırdı. Erməni isə onların evlərini daşıyıb dağıtmış, od vurub yandırmışdı. Soydaşlarımız yurd həsrətlisinə çevrilmişdi. Dövlət tərəfindən 30 ildə nə qədər qayğı ilə əhatə olunsalar da, torpaqlarını, öz yurdlarını arzulayır, buna görə də üzlərindən kədər əskik olmurdu.

Torpaqlarımız işğaldan azad olunandan sonra xeyli vaxt səsi çıxmayan erməni terrorçuları isə torpaqlarımızda peyda olub yeni əməliyyatlara başlamışdılar ki, artıq bunun qarşısı alınmalı idi.

15 oktyabrda Xankəndidə Azərbaycan bayrağını qaldıran dövlətimizin başçısı da bu məsələyə münasibət bildirdi: Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın. Budur, bu da nəticə, Azərbaycan xalqı öz torpaqlarında erməni terrorçularına qarşı antiterror əməliyyatı həyata keçirdi və onları məhv etdi.

Bu gün Xankəndidə dalğalanan Azərbaycan bayrağı bu xalqın birliyinin, həmrəyliyinin, qəhrəmanlığının nümayişi, göstəricisidir. Şəhər günün mübarək, Xankəndi. Sən azadsan, bu gün yenidən qurulur, yaradılırsan. Hətta sinən üzərində universitetə də yer vermisən ki, gənclər səni daha yaxşı öyrənsin. Qonşuluqdakı düşmənə göz dağı olsunlar.

*Ardı Səh. 7*

# Dövlət Suverenliyi Günü - QÜRUR GÜNÜ!




Əvvəli-Səh-6

**Xocalı, şəhər günün mübarək!**

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni quldurları Xocalıda soydaşlarımıza qarşı dünyada analoqu olmayan faciə törətdi. Xocalılılar bir gecənin qurbanına çevrildilər. Onlar qışın qılınc kimi kəsən şaxtalı bir gecəsində öz isti ocaqlarından zorla çıxarılıb dağa-daşa salındı, səsini çıxaran ailəsinin gözü qarşısında güllələndi, uşaqlar süngülərə keçirildi. Ən acınacaqlısı isə odur ki, səhəri gün öldürülmüş insanlara düşmən tərəfindən işgəncə verildi, onların burun-qulaqları, əl-ayaqları kəsildi, dəriləri soyuldu. Bütün bunlar, bax, ötən il 15 oktyabrda dövlətimizin başçısının Azərbaycan bayrağını dalğalandırdığı Xocalıda baş vermişdi. O zamandan ta ötən illərədək Xocalının haqq səsinin dünyaya yayılması uğrunda dövlətimiz yorulmadan mübarizə aparmışdır. Ondan çox ölkə Xocalı soyqırımını tanımış, "Xocalıya ədalət!" hərəkatı geniş beynəlxalq vüsət almışdır.

Ötən ilədək Xocalıda o müdhiş gecədə sağ qalan soydaşlarımız torpaq həsrəti ilə alışıb-yanırdı. Dövlətimizin başçısının Xocalıda Azərbaycan bayrağını qaldırması bütün xalqın qüruru oldu. Eyni zamanda, bununla həyatlarını 1992-ci ildə faciəli şəkildə itirmiş xocalıların qisası alındı. Artıq Xocalı da yenidən qurulur, Böyük Qayıdış bu yurd yerinə də başlayıb. Yaxın gələcəkdə isə bura qayıdanların sayı daha da artacaq. Çünki dövlətimiz Xocalıda əhalinin rahatlığı, rifahı üçün hərtərəfli işlər hörür.

**Xocavənd, Ağdərə, şəhər gününüz mübarək!**

Qarabağın dilbər guşələrindən olan Xocavənd və Ağdərə də illərlə erməni işğalı altında inləyən yurd yerlərimiz idi. Bu torpaqlarda yaşayan soydaşlarımız da erməni vəhşiliyinə uğramış, uzun illər torpaq dərdi sağalmaz yaralarına çevrilmişdi.

Xocavənd 2 oktyabr 1992-ci ildən 10 noyabr 2020-ci ilə kimi Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olmuşdur. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xocavənd şəhəri Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçmişdir. 26 sentyabr 2023-cü ildən şəhərə Azərbaycan silahlı qüvvələri nəzarət edir.

Erməni işğalına qədər Ağdərənin 14 kəndində 14 mindən çox azərbaycanlı yaşayıb. Ağdərə rayonu keçmiş Dağlıq Qarabağdakı bir çox ərazilər kimi, I Vətən müharibəsinin başlanğıcında erməni silahli qüvvələrinin nəzarəti altına keçir. 1992-ci ildə Azərbaycan ordusunun hücumu nəticəsində Ağdərə rayonu ərazisinin bir çox hissəsi erməni işğalçılarından azad edilir. 1 il boyunca Ağdərə şəhəri ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedir.

Lakin 1993-cü ildə Azərbaycanda 4 iyun Gəncə qiyamı baş verir. Qarabağ cəbhəsində döyüşən orduya rəhbərlik edən Surət Hüseynov mərkəzi hakimiyyətə qarşı qiyam edərək Bakıya doğru hücuma keçir. Onun rəhbərlik etdiyi ordu bölmələri öz mövqelərini qoyaraq Bakıya doğru hücuma qoşulur. Bundan məharətlə istifadə edən erməni ordusu 7 iyul 1993-cü ildə Ağdərə şəhərini və rayonun bir çox kəndlərini yenidən işğal edir.




19 sentyabr 2023-cü ildə başlanan lokal xarakterli antiterror əməliyyatı nəticəsində Ağdərə rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan ordusu tərəfindən azad olunmuşdur.

20 sentyabr bundan sonra bu iki yurd yerimizin də şəhər günü-azad günü kimi qeyd olunacaq. Azadlığınız, bayramınız mübarək, əziz ata-baba yurdlarımız.

**20 ilin təntənəsi**

Həm 44 günlük II Vətən Müharibəsi, həm 2020-ci ildən Qarabğda və Şərqi Zəngəzurda həyata keçirilən böyükmiqyaslı quruculuq işləri, məcburi köşkünlərimizin artıq bir qisminin ata-baba yurdlarına geri dönməsi, son 4 ildə davam edən danışıqlar, həm də ötən il həyata keçirilən 23 saatlıq antiterror tədbirləri ötən 20 ilin təntənəsidir. Ölkəmizin hərtərəfli inkişafını təsdiq edən Zəfərdir. Son 20 ildə iqtisadi gücümüzün artmasının, dünyada tanınmağımızın, milli ordumuzu yaratmağımızın, dövlət-xalq birliyinə nail olmağımızın, milli vətənpərvər ruhlu gənclərin yetişdirilməsinin, onların torpaq sevgisi ilə böyüməsinin, ümumilikdə torpaqlarımızı azad etməyə qadir olduğumuzun və bunu bütün dünya qarşısında nümayiş etdirə bildiyimizin təntənəsidir.

Ötən ilin 15 oktyabrda dövlətimizin başçısının Qarabağın digər bölgələrində də Azərbaycan bayrağını qaldırması 20 ilin yekunu dəyərində idi. Prezident cənab İlham Əliyevin Xankəndidəki çıxışında vurğuladığı kimi: Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır...

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror tədbirləri zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

***

Dövlətimizin başçısının sentyabrın 19-da və 20-də-Dövlət Suverenliyi və Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhərləri günündə Qarabağda səfərdə olması, Ağdamda, Şuşada, xüsusilə Xankəndidə bir sıra obyektlərin, eləcə də Qarabağ universitetinin açılış mərasimində iştirakı qürur tariximizin növbəti səhifəsidir. Eləcə də sərhədin o üzündəki düşmənə göz dağıdır. Bütöv, suveren Azərbaycan, səninlə qürur duyuruq. Nə yaxşı ki, varsan, nə yaxşı ki, biz azərbaycanlıyıq!

***Mətanət Məmmədova***

# “Sağlam gələcək, xoşbəxt cəmiyyət”









***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, “Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq sentyabrın 19-da İsmayıllı rayonunda “Sağlam gələcək, xoşbəxt cəmiyyət” mövzusunda tədbir keçirilib.***

Əvvəlcə İsmayıllı şəhərində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. İsmayıllı rayonu Heydər Əliyev adına Mədəniyyət Sarayında keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, İsmayıllı Rayon İcra Hakimiyyəti (RİH) başçısının sosial-iqtisadi məsələlər üzrə müavini Eyyub Musayev, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri, hüquq şöbəsinin müdiri Pakizə Abbasova, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxış edənlər narkomaniya ilə mübarizədə maarifləndirmənin əhəmiyyətli olduğunu bildirib, yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq üçün təbliğat işlərinin önəmindən bəhs ediblər. Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” bu problemlə sistemli mübarizə aparılması baxımından böyük önəm daşıyır. Qeyd olunub ki, sağlam cəmiyyət naminə zərərli vərdişlərə qarşı mübarizə hər zaman aktualdır. Müasir dövrdə isə gəncləri zərərli vərdişlərdən qorumaq mühüm çağırışdır. Gənclər daha çox bilik qazanmağa, sağlam həyat tərzinə üstünlük verməli, eyni zamanda, narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər.

Diqqətə çatdırılıb ki, yeniyetmə və gənclərimizin təlim-tərbiyəsi, elmə, təhsilə və idmana marağının artırılması onların zərərli vərdişlərdən çəkinməsində vacib faktordur. Qeyd olunub ki, bu gün müasir müstəqil Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti nəticəsində gənclər cəmiyyət həyatının bütün sahələrində, o cümlədən ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırlar. Dövlətimizin başçısı gənclərin hərtərəfli inkişafı, onların sağlam ruhda, milli-mənəvi dəyərlər əsasında tərbiyəsi məsələlərini daim diqqət mərkəzində saxlayır. Sevindirici haldır ki, Azərbaycan gəncləri 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilən bir günlük lokal xarakterli antiterror tədbirlərində şanlı ordumuzun sıralarında yüksək vətənpərvərlik, şücaət və qəhrəmanlıq göstəriblər.

İnteraktiv formada davam etdirilən tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# “Ömrümün yarısını dənizdə keçirmişəm"

***Nəriman Nərimanov adına Neft-qaz çıxarma idarəsi 5-ci dərəcəli neft-qaz çıxarma operatoru Nofəl Məmmədovun SİA-ya verdiyi müsahibəsini təqdim edirik:***

**- Sizə necə müraciət edək? Neftçi, yoxsa dənizçi?**

- Düşünürəm ki, neftçi olaraq müraciət etsəniz daha doğru olar.

- Neçə ildir bu sahədə çalışırsınız? Özünüz haqqında məlumat verə bilərsiniz?

- 1984-cü ildə Bərdə rayonu Məmmədli kəndində doğulmuşam. 2006-cı ildən Nəriman Nərimanov adına Neft və Qaz idarəsinin 2 saylı Neft və Qaz çıxarma sahəsində fəaliyyətimə başlamışam və hələ də bu sahədə çalışıram. Sualınıza daha konkret cavab versəm, 18 ildir bu sahədəyəm.

**- Dənizdə çalışmaq asan, yoxsa çətindir?**

- Düşünürəm ki, bu çox çətin və məsuliyyətli bir peşədir. Amma hər şeyə rəğmən dəniz bizim ikinci evimizdir.

**- Heç olubmu ki, gəmi dənizdə olarkən hər hansı problem yaşansın?**

- Şəxsi təcrübəmə əsasən deyə bilərəm ki, biz dənizdə olarkən hələ heç bir problem yaşanmayıb.

**- Bəs, problem yaşansa ilk olaraq hansı müdaxilələr edilməlidir?**

- İnsanlar xəsarət alan zaman ilk tibbi yardım göstərməyi bacarmaq lazımdır. Yanğın zamanı da yanğınsöndürən vasitələri istifadə etmək mütləqdir.

**- Küləkli havalarda dənizlə necə mübarizə aparırsınız?**

- Külək başlamazdan əvvəl bizə rəhbərlik tərəfindən lazımi məlumat verilir və qabaqlayıcı tədbirlər görülür. Həmçinin, təhlükəli olacaq işlərin görülməsi dayandırılır. Küləkli hava işə gələnlərə və işdən evinə yollananlara problem yaradır.

**- Bayramları da dənizdə qeyd edirsiniz?**

- İşim növbə rejimi ilədir. Bu səbəbdən bəzi bayramları dənizdə qeyd edirik.

**- Nə vaxtsa bu sahədən öz istəyinizlə getmək istəyərsiniz?**

- Növbəli iş rejimində çalışmaq çox çətindir. Bayaq dediyim kimi, 18 ildir dənizdə çalışıram. Bu işə ilk başlayanda 22 yaşım var idi. İndi isə 40 yaşındayam. Ömrümün yarısını dənizdə keçirmişəm və bura çox alışmışam. Düşünürəm ki, mənim üçün dənizdən ayrılmaq çox çətin olardı.

**- İşçi qrupunuz haqqında nə söyləyə bilərsiniz? Uzun müddət bir-birinizlə zaman keçirirsiniz. Bu sizi doğmalaşdırıbmı?**

- İş yoldaşlarımla çox yaxşı münasibətimiz var. Burada birlikdə bol zaman keçiririk. Doğmalaşmışıq və sanki bir ailə kimiyik. Dənizdə çalışanlar məni bu barədə çox yaxşı anlayar. İş yerindəki personal ünsiyyətinin səmimiliyi işin icrasına birbaşa və müsbət təsir göstərir. Səmimi və açıq ünsiyyət mühiti işçilər arasında etimadı və əməkdaşlığı gücləndirir, nəticədə komanda daxilində daha yaxşı koordinasiya və səmərəlilik yaranır.



NEFTÇİ İLƏ MÜSAHİBƏ

**- Övladınızın sizin peşənizi davam etdirməsini istəyərdiniz?**

- İki oğlum var. Biri tamam başqa sahəni seçib, digər isə dördüncü sinifdə oxuyur. Onlar bu peşəni seçsələr etiraz etmərəm. Uşaqların seçim edərkən özlərini tanımaları çox vacibdir. Bununla belə, qabiliyyətlər, bacarıqlar, maraqlar, dəyərlər və şəxsiyyət xüsusiyyətləri zamanla dəyişə bilər. Karyera planlaşdırma prosesləri tələbələrin mövcud xüsusiyyətlərinə əsaslanaraq, gələcəkdə potensial dəyişikliklərə açıq olmaqla çevik və daim yenilənməlidir. Gənclər gələcək planları ilə bağlı valideynləri ilə apardıqları söhbətlərdən çox təsirlənir və onların karyera seçimlərində valideyn təsiri mühüm rol oynayır.

**- Son olaraq gənclərə hansı tövsiyələriniz var?**

- Yeniyetməlik dövrünə qədəm qoymaq çox mürəkkəb bir prosesdir. Eyni zamanda, dost mühiti ilə ayaqlaşa bilmək, ailə ilə münasibətləri müəyyənləşdirmək, tələbləri yerinə yetirmək, akademik mühit və həyatla əlaqəli dəyərlər haqqında düşünmək lazımdır. Hər biri ayrı zəhmət tələb edən bu sahələrə diqqət yetirməli olan gəncləri gözləyən başqa bir məsələ isə gələcəkdə nə etmək istədiklərinə qərar verməkdir.

Gənclərdən ən qısa zamanda gələcəkləri ilə bağlı qərarlar vermələri tələb olunur. Gələcək qorxusu həm gənclərə, həm də onları əhatə edən böyüklərə aiddir. Gələcəyi formalaşdırmaq demək olar ki, bir yarışdır. Atılacaq o qədər addımlar, planlaşdırılacaq o qədər məsələlər var ki...

Gənclərə tövsiyəm odur ki, hansı peşəni seçmələrindən asılı olmayaraq həmin peşəyə dərindən yiyələnsinlər.

***Ayşən Vəli***

# Makronun barbarlığı dünyanı dəhşətə gətirir

## *Fransa xalqı hakimiyyətin yarıtmaz siyasətinə etiraz olaraq tarixinin növbəti inqilabına hazırlaşır*





***Dünyada elə dövlətlər var ki, onların rəhbərlərinin apardıqları pozucu və ikili siyasət nəinki regional xalqlara, o cümlədən beynəlxalq ictimaiyyətə zərər verir, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına təhdidlər yaradır. Bu sırada əsas yerləri ABŞ-ın, Fransanın, Almaniyanın, Fars-Molla rejiminin nəzarət etdiyi ərazilər, Niderlandın və digər ölkələrin, dövlət və hökumət başçılarının yer tutduqlarını demək olar.***

Çünki sözügedən dövlətlərin hər biri dünyada baş verən istənilən münaqişədə və müharibələrdə iştirak edirlər. Hətta bəzi hallarda həmin dövlətlər dövlətlərarası müharibələr yaradır və xalqlar arasında düşmənçilik toxumu səpirlər. Xüsusilə də, Fransanın tutduğu mövqe daha təhlükəli və amansızdır. Ona görə ki, bu dövlət iyirmi birinci əsr kosmos əsri olmasına baxmayaraq müstəmləkə siyasəti həyata keçir. Azadlığına, müstəqilliyinə can atan xalqları qəddarlıqla məhv edir, zərərsizləşdirməyə çalışır. Əlcəzairdə, Seneqalda, Madaqaskarda, Kamerunda, Ruanda, Çad və Mərakeş - bu ölkələrin hamısının tarixində Fransa öz qanlı izini qoyub. Fransanın Əlcəzairdə törədilən vəhşiliklərin izləri hələ də silinməyib. Sübuta yetirilən fakt ondan ibarətdir ki, Fransa Əlcəzairdən həm də kimyəvi silahların poliqonu olaraq istifadə edilib. Nəticədə on minlərlə insan sağlamlığını itirib, şikəst olub. 1960-cı ildə Əlcəzairin cənubundakı səhrada ilk fransız atom bombası partladılıb. Fransanın "Le Monde" qəzetinin yazdığına görə, yerli əhalinin sağlamlığına və ətraf mühitin çirklənməsinə nəzarət etmək öhdəliyi olmadan azı 16 yeraltı və atmosfer partlayışı baş verib. "Franceinfo"nun məlumatına görə, 1960-66-cı illər ərzində Əlcəzairdə ümumilikdə 57 nüvə təcrübəsi və sınaqları həyata keçirilib. Əlcəzair 1962-ci ildə müstəqillik qazandıqdan sonra belə Fransa bu ölkədə nüvə sınaqlarını davam etdirib. O dərəcə insanlıq hissini itirən dövlətdir ki, fəal əlcəzairlilərin sümüklərini Parisə gətirərək muzeylərdə sərgisini təşkil edir. Muzeydə 150 ildən artıqdır nümayiş etdirilən 24 kəllə arasında Zaatç mühasirəsi zamanı müqavimətə rəhbərlik edən Şeyx Buzian və Çerif Bubeqla kimi tanınan Məhəmməd Lamzad bin Abdelmalekin kəllələri də var. 2020-ci il martın 3-də Fransa Prezidenti Emmanuel Makron 24 kəllə sümüyünün Əlcəzairə qaytarılmasına razılıq verib. 2017-ci ildə seçki kampaniyası zamanı Fransa Prezidenti Emmanuel Makron Əlcəzairə səfər edib və yerli "Echourouk News" telekanalına müsahibəsində Fransanın Əlcəzairə qarşı müstəmləkəçiliyinin həqiqətən insanlığa qarşı cinayət olduğunu etiraf edib.

### Fransa insanlığa düşmən kəsilən dövlətə çevrilib

Fransanın törətdiyi soyqırımılar sırasında ən dəhşətlisi Ruanda faciələridir. Bu ölkənin 800 min etnik tutsi Fransanın qətliamının qurbanı olub. BMT-nin məlumatına görə, tutsilərin məhv edilməsi bir neçə ay ərzində planlaşdırılıb. Yerli silahlı dəstələr yaradılıb, kütləvi təbliğat aparılıb, maçete-bıçaqlar alınaraq əhaliyə paylanılıb. Heç kimə - nə uşaqlara, nə qocalara, nə hamilə qadınlara mərhəmət edilməyib. Məktəblərə, kilsələrə qaçıb sağ qalmağa çalışanları da diri-diri yandırıblar və ya onların olduğu məkana qumbara atıblar. Fransa soyqırımı ərəfəsində Juvenal Habyariman hökumətinə kömək edib, sonradan tutsilərin kütləvi qətliamında iştirak edəcək strukturları hazırlayıb, həmçinin onları silahla təmin edib.

Bu gün də Fransanın vəhşiliyi müstəmləkə altında saxladığı xalqlar üzərində davam etməkdədir. Yeni Kaledoniyada hər gün Fransa ordusu tərəfindən etiraza qalxan insanlar öldürülür və ya yaralanır. Lakin ortada olan bir həqiqət var ki, artıq Fransanın müstəmləkə siyasətinə qarşı xalqların birliyi yaranıb və bu birlik öz müsbət nəticəsini verməkdədir. Xüsusilə də Bakı Təşəbbüs Qrupu daha uğurlu nəticələr verir. Nəzərə almaq lazımdır ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda konfransın iştirakçıları tərəfindən yaradılıb. Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda, Bakı Təşəbbüs Qrupu tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu-York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda keçirilib. Fransa müstəmləkəsindən əziyyət çəkən ölkələri və onların xalqlarını müdafiə edən, dəstək göstərən yalnız Azərbaycan dövlətidir. Bu səbəbdən də müstəmləkədən əziyyət çəkən xalqlar Azərbaycan xalqına, Prezident İlham Əliyevə öz təşəkkürlərini bildirirlər. 2023-cü il 5 iyul tarixində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan neokolonializm meyillərinin artmasından olduqca narahatdır: "Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri də Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir".

### "Fransa terrorçu dövlətdir"

2024-cü il iyulun 17-də Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda birinci Qurultay keçirilib. Burada əsas ideya və məqsəd Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizəsini dünyaya bəyan etməkdir. Azərbaycanda keçirilən qurultay iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa kolonializminə qalib gəlmək üçün nəticəyönümlü fəaliyyətin əlaqələndirilməsinin yollarını müzakirə etmək imkanı yaradacaq. Tədbirdə çıxış edən Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep Bakıda belə bir Qurultayın keçirilməsinə dəstək göstərdiyi üçün Azərbaycan hökumətinə təşəkkürünü bildirib: "Azərbaycan cəsarətli addımlar atır. BMT-nın çətiri altında Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə biz ilk dəfə Bakıda belə bir tədbir keçiririk". Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Bakıda keçirilən tədbirdə iştiraklarına görə Azərbaycan hökumətinə və buna şərait yaradan bütün insanlara təşəkkürünü ifadə edib: "Biz plaftormalarımızı möhkəmləndirməliyik, müzakirələr aparmalıyıq. Siyasi fəaliyyətimizi elə qurmalıyıq ki, çağırışlara cavab tapa bilək. Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik. Yeni dünya düzənində öz yerimizi tapmalıyıq".

Yeni Kaledoniya parlamentinin üzvü Maria Saliqa diqqətə çatdırıb ki, Fransa dövlətinin hərəkətləri qəbuledilməzdir və beynəlxalq səviyyədə müzakirə olunmalıdır. Makron Fransası bütün demokratiya qaydalarına üz çevirib. Maria Saliqa qeyd edib ki, Fransız Polineziyasında bu ölkənin atom, nüvə testlərini xatırlayırıq. Həmin ərazilərdəki xalqlar bundan uzun müddət əziyyət çəkdilər. "Fransa terrorçu dövlətdir. Azad etmək istəmədiyi ərazilərdə hökmranlığını sürdürür".

Görünən ondan ibarətdir ki, Fransa zor gücünə, kütləvi qətliamlarla müstəmləkə siyasətini davam etdirə bilməyəcək. Son nöqtədə xalqlar müstəqilliklərinə nail olacaqlar. Buna əminlik yaradan əsas amillərdən biri müstəmləkə altında əzilən xalqların birlik nümayiş etdirərək azadlıq mübarizəsinə qalxmalarıdırsa, digər səbəb Fransanın özündə E.Makronun yarıtmaz siyasətinə qarşı fransızların ayağa qalmasıdır. Hətta bəzi siyasi partiyalar və hərəkatlar E.Makronun istefasını tələb edirlər. "İtaətsiz Fransa" partiyası isə E.Makronun istefası ilə bağlı petisiya toplayır. Artıq solçu "İtaətsiz Fransa" partiyasının başlatdığı petisiya 300 mindən çox imza toplayıb. Təbii ki, Fransa xalqının yekdil qərarı ilə E.Makron tarixin arxivinə göndəriləcək. Əgər müqavimət göstərilsə fransızlar növbəti inqilablarını həyata keçirəcəklər. Məlum faktdır ki, Fransa tarixində 165 üsyan və inqilablar baş verib. Ən amansız inqilab 1229-cu il də baş verib. Kilsənin nüfuzunu qaldırmaq üçün krala qarşı üsyan təşkil etmişdir. Bu üsyan nəticəsində 170 min insan həyatından olmuşdur. Daha bir üsyan isə 1270-ci ildə ölkənin cənubunda yerləşən Cahors şəhərində baş verib. Bir şəhərdən başlayan və bütün ölkəyə yayılan üsyan zamanı minlərlə insan öldürülmüşdür. 1358 Jakeriya üsyanı, 1378-1382-ci illər arasında isə monarxiyaya qarşı xalq üsyanları baş verib. Ən amansız və dəhşətli üsyan isə 1789-1799-cu illərdə baş verən inqilab hesab olunur. Bu inqilabın nəticəsində ölkənin idarəetmə forması dəyişdi. Lakin inqilab sakitliklə keçmədi. Hakimiyyəti zəbt edən yakobinlər adlanan qruplaşma üzvləri amansız qətliamlar, vəhşiliklər törətdilər. Yakobinlər kimdən şübhələnir və ya özlərinə real təhlükə hesab edirdilərsə, onları qəddarlıqla öldürürdülər. Bununla bağlı 1793-cü ildə fərmanda imzalayıb, vəhşiliklərini rəsmiləşdirmişdilər. Onlar müxtəlif işgəncə vasitələri hazırlayıb, insanları onların üzərinə çıxarıb məhv edirdilər. Ən dəhşətli işgəncə vasitəsi gilyotina hesab olunurdu. Gilyotina insanı dərhal öldürürdü. Bu avadanlıqla inqilab dövründə 35 000 insan öldürülmüşdü, ümumilikdə 1789-1799-ci illər ərzində xırda və böyük toqquşmalar nəticəsində 5 milyon fransız öldürülmüşdür. Böyük Fransa inqilabı adlandırılan 1789-1799-ci illər də Yakobinlər kimdənsə şübhələnərdilərsə, o zaman onu gilyotina vasitəsi ilə sıradan çıxarırdılar. Lakin sonradan yakobinlərin hakimiyyətləri uzun çəkmədi, fransızlar ayağa qalxaraq onları hakimiyyətdən uzaqlaşdırdılar və əksəriyyətini həbs etdilər. Həbs olunan yakobinlər gilyotina vasitəsi ilə məhv edildilər. Bu baxımdan bəzən araşdırmaçılar haqlı olaraq qeyd edirlər ki, fransızlar tarixən qəddarlıqları və vəhşilikləri ilə seçiliblər. Onlar təkcə öz xalqına və hakimiyyətinə qarşı deyil, həm də müstəmləkə altında saxladıqları millətlərə və dövlətlərə qarşıda amansız davranıblar. 22 fevral 1848-ci ildə növbəti inqilab baş verdi. Kral Lui Filippin devrildi və Napoleon Bonapartın qardaşı oğlu Lui-Napoleon Bonapart hakimiyyəti ələ keçirdi.

1936-1967, 1968-ci illərdə milyonlarla insanın iştirakı ilə Parisdə və Fransanın iri şəhərlərində küçə yürüşləri baş vermişdir. İyirmi birinci əsrdə Fransa da ən böyük etiraz aksiyaları E.Makronun hakimiyyəti dövründə yaşanmışdır. 2018-ci ildə "Sarı jiletlilər" hərəkatının həyata keçirdiyi üsyanaksiya zamanı ölkədə xaos və anarxiya hökm sürmüş və bu vəziyyət bu gün də davam etməkdədir. Lakin artıq düşünən beyinlər vəziyyətin bu cür acınacaqlı şəkildə davam etməsi ilə barışmaq istəmirlər. Bütün günahların Makronun səhv siyasət aparması ilə əlaqələndirib, onun istefasını tələb edirlər. Əks halda Fransa növbəti qan içində - inqilabla boğulacaq.

**İLHAM ƏLYİEV**





***Livanda Hizbullah fəallarının istifadə etdiyi mobil telefonlar da daxil olmaqla rabitə cihazları ardıcıl ikinci gün kütləvi şəkildə partladıldı. Livanın Səhiyyə Nazirliyi axşam saatlarında məlumat yayıb ki, azı 12 nəfər ölüb, 500-dən çox insan yaralanıb. Hizbullah yenidən İsraili günahlandırıb və qisas alacağına söz verib.***

# İsrail-Livan, yoxsa III Dünya savaşı?

RAKURS

Yəhudi dövlətinin səlahiyyətliləri isə, Qəzzadan Livan sərhədinə qoşun yeridir və getdikcə daha çox ehtimal olunan müharibəyə hazırlaşır. Çərşənbə günü məlum olduğu kimi, məsələ təkcə yüzlərlə peycerin partlayışları ilə məhdudlaşmırdı. Eynilə gözlənilmədən Livanda portativ radio stansiyaları və digərləri partlamağa başlayıb. "Əl-Hədət" telekanalının məlumatına görə, radiostansiyalardan başqa, smartfonlar, barmaq izi cihazları və günəş panelləri və litium-ion batareyaları ilə işləyən digər qurğular partlayıb. Çərşənbə axşamı günü partlayışların birinci dalğası nəticəsində, yenilənmiş məlumatlara görə, 14 nəfər ölüb, 4 mindən çox insan yaralanıb və onlardan ən azı 400-ə yaxınının vəziyyəti ağırdır.

Livanın Əl-Manar telekanalı təhlükəsizlik mənbələrinə istinadən xəbər verir ki, partlamış radiolar Hizbullah tərəfindən təxminən beş ay əvvəl, bir gün əvvəl partlayan bir neçə min peycerlə eyni vaxtda alınıb. Mənbələr Əl-Mayadeen-ə bildiriblər ki, peycerlər "adi metal detektorları tərəfindən hətta beynəlxalq hava limanlarında belə aşkarlana bilməyən partlayıcılarla təchiz edilib. Qəzet yazır: "Peyycer batareyalarının özləri partlayış dalğasının mənbəyi deyildi. Onun sözlərinə görə, qurğular mesaj haqqında səs siqnalı aldıqdan sonra dörd saniyə ərzində partlayıb.

İsrailin "Vallah" portalının jurnalisti Barak Ravid məlumatlı mənbələrə istinadən X sosial şəbəkəsində yazıb: Partlayışların ikinci dalğasının, eləcə də peycerlərlə əməliyyatın arxasında İsrail dayanır. Rəsmi olaraq yəhudi dövləti sentyabrın 17 və 18-də baş verən partlayışlarla bağlı şərh verməyib. Bu arada Hizbullah dərhal İsraili "mülki əhaliyə də təsir edən cinayətkar təcavüzdə" günahkar elan edib. Hizbullah "məkrli cinayətkar düşməndən" qisas almağa söz verib və qisas almaqdan çəkinməyib. Sentyabrın 18-də günorta saatlarında Hizbullah İsrailin Kiryat Şmonadakı artilleriya mövqelərinə 20-yə yaxın "Katyuşa" raketi atıb. İsrail hərbçiləri hücum nəticəsində heç kimin xəsarət almadığına aydınlıq gətirib. Eyni zamanda, Livan hərəkatı bunun "sadəcə qisas"ın başlanğıcı olduğunu vurğulayıb.

Hizbullahın mövqelərini yayımlayan Livanın "Əl-Əxbar" qəzeti sentyabrın 18-də yazıb: "İctimaiyyətin qəzəbinə baxmayaraq, Hizbullah təmkinli davranır, impulsiv reaksiyalardan qaçır. Bununla belə, hərəkat düşmənin (İsrail) cəsarətli hərəkətlərinin qarşıdurmanın yeni mərhələsinə sövq edə biləcəyini qəbul edir". Qəzet İsraillə genişmiqyaslı müharibənin mümkünlüyündən birbaşa yazıb. Bu arada Qətərin "Əl-Ərəbi Əl-Cədid" qəzeti qruplaşmanın nümayəndələrinə istinadən aydınlıq gətirib ki, hərəkat "müharibə istəmir və buna tam hazır olsalarda, hələ də belə bir ssenarini istisna edir".

Rəsmi Livan hakimiyyəti də müharibəyə can atmır və bunu hər cür vurğulayır. Sentyabrın 17-də xarici işlər naziri Abdullah Bu Həbib BMT-ni "bütün regionu zorakılıq spiralına sürükləyə biləcək" "eskalasiyanı dayandırmaq" üçün israillilərə maksimum təzyiq göstərməyə çağırıb. Əl-Ərəbi əl-Cədidin ölkə hökumətindəki mənbələri isə yazır ki, Livan hakimiyyəti hər ehtimala qarşı "ən pis ssenari üçün fəaliyyət planı" hazırlamağa başlayıb və ölkədəki sığınacaqların hazırlığını yoxlayır.

Bu arada İsrail Ordusu Radiosu elit 98-ci diviziyanın Qəzzadan şimal cəbhəsinə köçürüldüyünü xəbər verib. Nəşr qeyd edir ki, bu, Hizbullahla daha böyük münaqişəyə hazırlıq ola bilər. Bundan əlavə, sentyabrın 18-də Livanla sərhəddə yerləşən iki briqada bu respublikanın ərazisinə işğalı imitasiya etmək üçün təlimlərə başlayıb. İsrail Müdafiə Qüvvələrinin Şimal Komandanlığının rəhbəri Uri Qordon həmin gün "Vəzifə aydındır - biz təhlükəsizlik vəziyyətini mümkün qədər tez dəyişməkdə qərarlıyıq" deyib.

Genişmiqyaslı müharibənin olub-olmaması əsasən Hizbullahın baş katibi Həsən Nəsrullahın qərarlarından asılıdır. Qrup İsrailə qarşı genişmiqyaslı hücuma keçərsə, İsrail hakimiyyətini işğala məcbur edəcək. Yəqin ki, Həsən Nəsrullahın cümə axşamına planlaşdırılan çıxışından sonra Hizbullahın planları barədə daha çox anlayış yaranacaq.

## İsrailin sürprizi

İsrail Hizbullahın kommunikasiya vasitələrini zədələmək üçün iki günlük əməliyyatdan sonra Livanı atəşə tutmağa başlayıb. Yəhudi Dövlətinin Baş Qərargahı hücum əməliyyatı planlarını təsdiqləyib ki, bu da hazırda Qəzza zolağında açıq olan cəbhəyə əlavə olaraq daha bir cəbhənin meydana çıxması deməkdir. Hizbullah mövcud vəziyyəti de-fakto müharibə elanı adlandırıb. Bununla belə, ekspertlər əmindirlər ki, nə "Allahın partiyası"nın, yəni Hizbullahın, nə də onun əsas xarici himayədarı olan İranın İsrailin təzyiqi ilə mütənasib variantları yoxdur.

İsrail Müdafiə Qüvvələri (IDF) sentyabrın 19-da Livana intensiv zərbələr endirdiyini bildirib. Atışma zonası cənub rayonlarından kənara çıxıb və Sidrlər ölkəsində kritik yaşayış məntəqələrinə çatıb. Şahidlərin sözlərinə görə, İDF təyyarələri Beyruta çatıb. Bundan əvvəl Yəhudi Dövlətinin Baş Qərargahının Hizbullah mövqelərinə hücum planlarını təsdiqlədiyi barədə xəbərlər yayılmışdı. Şiə təşkilatının baş katibi Həsən Nəsrullah həmin gün etdiyi çıxışında İsrailin fəaliyyətini faktiki müharibə elanı adlandırıb və qonşusunu hər cür "qırmızı xətti" keçməkdə günahlandırıb.

İran prezidenti Məsud Pezeşkian da İsrailə qarşı cavab tədbirlərinin qaçılmaz olduğunu bəyan edib. O, Livanda Hizbullah üzvlərinə təsir edən çoxsaylı rabitə vasitələrinin partladılmasını pisləyib. "İran İslam Respublikası livanlılara qarşı bu iyrənc cinayəti pisləyir və Livan hökumətinə və xalqına dəstəyini vurğulayır. Biz beynəlxalq təşkilatlardan öz öhdəliklərini yerinə yetirmələrini xahiş edirik". Bir gün əvvəl İran missiyası BMT-ni Livandakı təxribat hücumuna cavab vermək niyyəti barədə məlumatlandırmışdı. İran Silahlı Qüvvələrinin Baş Qərargahı da öz növbəsində bəyanat yayaraq, onun tərəfindən bir çox cavab tədbirlərinin ləngidiyini əsaslandırmağa çalışıb. Məsələn, iyulun 31-də HƏMAS Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin Tehran iqamətgahında öldürülməsinin qisası.





Ardı Səh. 11



düşür. Bunun sübutu İranın Haniyyənin qətlinə reaksiyası, daha doğrusu, olmamasıdır. Netanyahunun prezident seçkilərindən əvvəl ABŞ-ı Yaxın Şərq böhranının içinə çəkmək cəhdləri fonunda iranlılar, əksinə, təmkinli hərəkətləri ilə regionda xal qazanırlar. Bu şəraitdə Tehranın digər ölkələrin "proxy" qüvvələrinin cəlb olunduğu potensial əməliyyatı faydasız görünür, çünki İran-Səudiyyə münasibətlərinin qurulmasına baxmayaraq, regional müttəfiqlərin iştirakı Səudiyyə Ərəbistanı tərəfindən artan təhlükə səviyyəsi kimi qəbul ediləcək. İsrail bunu başa düşür, ona görə də onun hərəkətləri həm də müxtəlif müharibə teatrlarını əlaqələndirmək strategiyasının məhdudiyyətlərini göstərmək məqsədi daşıyır.

Livanda baş verən hadisələr Telegram kanallarının müəllifləri tərəfindən yaxından izlənilir. İsrailin Livandakı silsilə bombardmanlarından sonra qaçılmaz və tez gündəmə gələcək ən böyük sual, bunun hər kəs üçün nəticələri ilə bağlı olacaq. Aviaşirkətlər bunu bilə-bilə təyyarənin göyərtəsində internetə çıxış imkanını qoruyub saxlayacaqlarmı? Yüklənmiş cihaz tamamilə işçi kimi görünə bilər, əgər təyyarənin göyərtəsində noutbuku olan bir kamikadze olarsa, onda nə etməli? Hücumun hazırlıq və icra səviyyəsi elədir ki, onu hazırlayan sistemlə keçən ilki HƏMAS hücumunu tamamilə iflasa uğrayan sistemin bir və eyni sistem olması faktını ört-basdır etmək çətinləşir o mənada ki, belə bir fikirlə mübahisə etmək qeyri-mümkündür ki, bu

# İsrail-Livan, yoxsa III Dünya savaşı?

Əvvəli-Səh-10

Baş Qərargah yəhudi dövlətinin təxribat hərəkətlərinin heç bir müddətinin olmadığını və İslam Respublikasının lazım bildiyi zaman zərbə vurmaq hüququna malik olduğunu vurğulayıb.

Livanda peycerlərin və radioların partladılması əməliyyatının hazırlanması çox uzun çəkib. "The New York Times"dakı mənbələrə görə, yəhudi dövləti daha əvvəl beynəlxalq peycer istehsalçısı kimi özünü göstərən partlayıcı rabitə vasitələrinin istehsalı üçün şirkət yaratmışdı. Nəticədə İsrail kəşfiyyat xidmətləri Hizbullaha tədarük edilən cihazların bütün daşınmalarının təhlükəsizliyini pozmağa müvəffəq olub. Eyni zamanda, İsrail əkskəşfiyyat fəaliyyətini də unutmayıb. Baş Təhlükəsizlik Xidməti (Şin Bet) İran tərəfindən işə götürülən və baş nazir Benyamin Netanyahuya, hərbi komandirlərə və kəşfiyyat qurumlarının rəhbərlərinə qarşı sui-qəsd hazırlayan yəhudi əsilli iş adamının tutulduğunu açıqlayıb.





Uğurlu təxribat əməliyyatının təsiri altında Benyamin Netanyahu hökuməti cümə axşamı Livanın cənub bölgələrini atəşə tutmağa başlayıb. İsrail mediası Baş Qərargahın qurudan hücum planını təsdiqlədiyini bildirib. Bir gün əvvəl komandanlıq o ana qədər Qəzza zolağında döyüşən 98-ci diviziyanı Livanla sərhədə gətirib. Diviziya paraşütçülər və komando briqadalarından ibarətdir. Ayrı-ayrılıqda İsrail ordusu ehtiyatda olan hərbçilərin, o cümlədən hava hücumundan müdafiə heyətinin çağırışını məhdudlaşdırmaq qərarına gəlib.

Yaxın Şərq üzrə ekspert Anton Mardasov deyib ki, birincisi, Hizbullah daxilində təhlükəsizlik, necə deyərlər, indi ələk kimidir. İsrail bir-birinin ardınca uğurlu və yüksək səviyyəli əməliyyatlar keçirməyi bacarır. Bu, bir tərəfdən Hizbullah tərəfdarlarının sıralarında təxribat yaradır, digər tərəfdən Hizbullahın Unit 8200-ün (İsraildə əsas elektron kəşfiyyat bölməsi) kəşfiyyat qərargahına qarşı uğurlu əməliyyatı kimi İsrailin uğursuzluqlarını ört-basdır edir. Belə bir versiya var ki, İsrail məhz bu təxribata cavab olaraq "peycer hücumu" həyata keçirib, baxmayaraq ki, daha etibarlısı var: İsrail kəşfiyyat xidmətləri ifşa olunmaq ərəfəsində olduğu üçün öz kozırlarını oynamağa məcbur olublar.

Heç kim Haniyənin harada və hansı şəraitdə ləğv edildiyini unutmayıb. Buna görə də İranın Hizbullaha təhlükəsizlik təşkilatı ilə bağlı sualları varsa, onun İslam İnqilabı Keşikçiləri Korpusunun öz uğursuzluğunu nəzərə alsaq, Livan hərəkatını qınamaq imkanında olması çətindir. İkincisi, əgər əvvəlcə ABŞ-ı birbaşa münaqişəyə cəlb etmək üçün İsrailin regionda payı artırmaq strategiyasının o qədər də uğurlu olmadığı və Hizbullahın kifayət qədər manevr imkanları olduğu görünürdüsə, indi mənzərə dəyişir. Hizbullah yeganə ciddi arqumentə – İsrail şəhərlərinin kütləvi şəkildə atəşə tutulmasına, nəinki genişmiqyaslı müharibəyə səbəb ola biləcək, həm də, bəzi analitiklərin fikrincə, təxribat yaradacağına əl atmadan çəkindirmədə paritet saxlamaqda getdikcə çətinləşir. Bu, hamıya bəlli olacaq: onlar əziyyət çəkəcəklər, çünki Hizbullah Livan dövləti və onun maraqları hesabına İranın regional planını irəli sürüb. Hər kəs anlayır ki, onsuz da ciddi daimi iqtisadi və siyasi böhran içində olan Livan müharibəyə tab gətirməyəcək.

Pariteti qorumaq üçün Hizbullah Livanı tam dağılmaqdan saxlayacaq, eyni zamanda inandırıcı olacaq bir cavab tapmalıdır. İsrail hədəflərinə qarşı adi raket və pilotsuz təyyarələrin buraxılması İsrailin Hizbullahın müdafiə qabiliyyətini və birliyini pozmaq üçün texniki cəhətdən mürəkkəb əməliyyatları ilə müqayisə edilə bilməz. Aydındır ki, məsuliyyət daşıyanların axtarışı, göründüyü kimi, tək düşmən qarşısında birliyə kömək etmir. Tehran bunu yəqin ki, yaxşı başa uğursuzluq niyyətsiz ola bilməzdi, çünki onun partlaması üçün detonator lazımdır, bu, əvvəlkindən də çətindir.

### İsrail Vaşinqtona müqavimət göstərir

Vaşinqtonun müttəfiqi olan İsrail ABŞ prezidenti Co Bayden administrasiyasının Yaxın Şərqdə gərginliyi azaltmaq səylərinə qarşı getdikcə daha çox etiraz edir. Bu fikri "The Washington Post" (WP) yazıb. Nəşrin yazdığına görə, Livanda peycerlərin partladılması əməliyyatı Vaşinqtonun regionda gərginliyin səviyyəsini azaltmaq üçün "uğursuz cəhdlərinə" daha bir zərbə vurub. Eyni zamanda, amerikalı diplomatlar əvvəllər Qəzza zolağında münaqişə başlayandan bəri İsrail və şiə Hizbullah hərəkatı arasında genişmiqyaslı müharibənin olmamasını onların "əsas nailiyyəti" hesab edirdilər. Lakin vəziyyətin bu istiqamətdə gərginləşməsini nəzərə alsaq, Vaşinqtonun vəziyyətə nəzarəti həmişəkindən daha zəif görünür. Nəşr onu da qeyd edir ki, Livan ərazisində peycerlərin partladılması Qəzza zolağında atəşkəs və girovların azad edilməsi ilə bağlı razılığın əldə edilməsi səylərinə zərbə vura bilər.

**V.VƏLİYEV**

***Son iki yüz ildə arzularda, yaddaşlarda yaşayan Türk birliyi - Turan tarixin iradəsi, taleyin hökmü ilə bahar gülləri kimi yavaş-yavaş çiçəklənməkdədir. Türk birliyi - Turan da idealar kimi ölmür, bu arzunun həyata keçəcəyinə hər birimiz inanırıq. Türk Birliyinin sərhədləri bəllidir: Dərbənddən Göyçəyə və İrəvana, Bakıdan Təbrizə və Həmədana. Daha geniş sərhədləri: Mancuriyadan - Macarıstana, Sibirdən, Altaydan ta İtil (Volqa) çayı boyunca böyük ərazilər Turan yurdudur. Bu, ədalətli qoca tarixin hökmünə tabe olan məsələdir.Hunlar, avarlar, uyğurlar, xəzərlər, qıpçaqlar, karluqlar, sabarlar, bulqarlar, uzlar, xalaclar, başqırdlar, tuvalar, xanaslar, saklar, altaylar, şorlar, çuvaşlar, kamasinlər, qarapapaqlar, tofalar, yukagirlər, barabinlər, kumuqlar, qaraqaylar, balkarlar, noğaylar, tamarlar, qaqauzlar, qaraimlər, urumlar, annaqilər, özbəklər, qazaxlar, türkmənlər, qırğızlar, nanaylar kimi adlandırılan Türk milləti təqribən 40 yerə bölünüb, 40 ad altında dünyanın hər ucundakı öz ata-baba torpaqlarında, doğma yurdlarında assimilyasiya olunmamaq üçün mücadilə edirlər. Dillərini, yazılarını, keçmişini qorumaq, gələcəyini qurmaq savaşındadırlar.***




# Türk Birliyi və vahid əlifba



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Aa | Aa | a | 18 | Oo | Oo | o |
| Ää | Əə | ə | 19 | Öö | Өө | ө |
| Bb | Бб | бы | 20 | Pp | Пп | пы |
| Dd | Дд | ды | 21 | Qq | Ққ | қы |
| Ee | Ee | e | 22 | Rr | Рр | ыр |
| Ff | Фф | фы | 23 | Ss | Сс | сы |
| Gg | Гг | гі | 24 | Şş | Шш | шы |
| Ğğ | Ғғ | ғы | 25 | Tt | Тт | ты |
| Hh | Xx, Hh | hы | 26 | Uu | Уу | ұу |
| İi | Йй, Ии | ій | 27 | Ūū | Ұұ | ұ |

Bu gün fərqli sərhədlərlə əhatələnsələr də kənar müdaxilələrdən hələ də qurtula bilməyiblər, özünü toparlamaq, özünü dərk etmək, özünə qayıtmaq, kimliyini anlamaq və birləşmək, bir olmaq istəyini gerçəkləşdirə bilməyiblər. XXI yüzilliyin əvvəllərindən başlayaraq birliyin ilk addımlarını atmağa çalışıblar və nəhayət bunu bacarıblar. Bu gün Türk Dövlətləri Birliyi dünyada güc mərkəzi kimi formalaşmağa başlayır.

## Vahid əlifba, bu necə olmalıdır?

Türk dünyasının liderləri oktyabrın 24-də Bişkekdə Türk Dövlətləri Təşkilatının (TDT) növbəti sammitində bir araya gələcəklər. Təşkilatın mövcudluğunun 15 illiyini qeyd edən görüş əlamətdar olacağını vəd edir. Əməkdaşlığa yeni təkan verəcək Hökumət Başçıları və TDT-nin Vitse-Prezidentləri Şurasının yaradılması planlaşdırılır. Dərnəyin üzvləri latın əlifbasına əsaslanan ortaq türk əlifbasına keçidlə bağlı qərar qəbul etməli və bir gün əvvəl TDT ölkələrinin komissiyası tərəfindən təsdiqlənməlidir. Bunun ardınca dilin unifikasiyası baş verəcək. Türkiyə türk dünyası ölkələrini öz ətrafında cəmləşdirərək burada əsas rol oynayır.Bir il əvvəl Qazaxıstanın Türküstan şəhərində keçirilən TDT sammitində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan vahid əlifbanın tezliklə yaradılmasının vacibliyini vurğulamışdı. O, bu addımı türk dövlətlərinin birləşməsinin tərkib hissəsi adlandırıb və çağırışlar qarşısında "birlikdə qalmağın" zəruriliyini vurğulayıb. TDT ölkələri arasında əməkdaşlıq mədəni və linqvistik aspektlərdən çox-çox kənara çıxır. İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sektorunda fəal inteqrasiya mövcuddur. Sentyabrın 16-da Bişkekdə keçirilən TDT ölkələrinin energetika nazirlərinin dördüncü iclası Türk Dünyasının 2040-cı ilə qədər İnkişaf Konsepsiyasının çərçivəsində ölkələrin enerji təchizatının sabitliyini və davamlılığını təmin etmək əzmini təsdiqləyib. İclas iştirakçıları "yaşıl" dəhlizlərin yaradılmasının vacibliyini vurğulayaraq, ölkələr arasında enerji transferinin təşkilində irəliləyişin olduğunu qeyd ediblər.Təhlükəsizlik sahəsində əməkdaşlıq da sıxlaşır. Sentyabrın 6-da Çolpon-Atada TDT ölkələrinin Daxili İşlər Nazirləri Şurasının ilk iclası keçirilib. TDT ölkələri birgə hərbi təlimlər keçirir və hərbi-sənaye kompleksini inkişaf etdirir, Türkiyə isə Mərkəzi Asiya ölkələrinə hərbi texnika və silah tədarükçüsü kimi lider mövqe tutur. Mədəni və iqtisadi əlaqələrin inkişafı ilə yanaşı, əslində TDT-nin regionda nüfuzunu gücləndirmək üçün hər cür imkanlar öyrənilir. Vahid əlifbaya keçid Türk birliyinin mövcudluğunu gücləndirmək vəzifəsini sadələşdirən güclü bir vasitə olacaq.Əlifba dəyişikliyini həyata keçirmək üçün TDT-nin üzvləri - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan xüsusi komissiya yaradıb və Türk Akademiyasının köməkliyi ilə ortaq türk əlifbasını hazırlayıb təsdiq ediblər. İndi bu ölkələr öz milli əlifbalarını təsdiq edilmiş vahid əlifba ilə sinxronlaşdırmalıdırlar. TDT müşahidəçiləri - Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikası təşkilatın qəbul etdiyi qanunlardan tövsiyə kimi istifadə edə bilərlər.TDT üçün hazırlanmış yeni türk əlifbasında 34 hərf var. Komissiyanın üzvü, Bakı Dövlət Universitetinin ümumi dilçilik kafedrasının müdiri Nizami Cəfərov əmin edir ki, qəbul edilmiş ortaq türk əlifbası ilə iştirakçı ölkələrin əlifbaları arasında fərqlər əhəmiyyətsizdir və asanlıqla aradan qaldırıla bilər. "Burada heç bir böyük problem yoxdur. Ən böyük problem qazaxların və qırğızların latın əlifbasına nə vaxt keçəcəkləridir", - deyə o vurğulayıb.Bir çox postsovet respublikalarında kiril əlifbasından latın əlifbasına keçid prosesi artıq başa çatıb. Azərbaycanda və Türkmənistanda 1990-cı illərin birinci yarısında kiril əlifbasından imtina edilib. Özbəkistan 2023-cü ilin yanvarından nəhayət ki, latın əlifbasına keçib. Bu vaxta qədər respublikada paralel olaraq iki əlifbadan istifadə olunurdu. Qazaxıstanda latın əlifbasına keçid 2017-ci ildən planlaşdırılırdı və 2025-ci ilə qədər bu prosesin başa çatması nəzərdə tutulurdu. Lakin prezident Qasım-Jomart Tokayev bu prosesi dəstəkləyərək səhvlərə yol verməmək üçün latın əlifbasının tətbiqinə tələsməməyi tövsiyə edir.Və yalnız Qırğızıstan kiril əlifbasından istifadə etməyə davam edir. Respublikada latın əlifbasının tətbiqi məsələsi iki dəfə qaldırılıb - alimlər 1928-ci il türk əlifbasının əsas götürülməsini təklif edirlər. Parlament üzvləri bu prosesi sürətləndirmək qərarına gəliblər, lakin prezident Sadır Caparov ölkənin əlifbanı dəyişməyə hazır olmadığını deyərək onları dayandırıb. "Dövlət dilini kiril əlifbasında düzgün, səriştəli səviyyədə bilməyi təmin etmədən latın əlifbasına keçiddən söhbət gedə bilməz", - deyə Caparov vurğulayıb.Orta Asiyanın bütün türk dövlətlərinin 2026-cı ilə qədər latın qrafikasına keçməsi ehtimalı kifayət qədər yüksəkdir. Bu tarix əlamətdardır: Bakıda birinci Ümumittifaq Türkoloji Qurultayın 100 illiyi qeyd olunacaq. Ekspertlər deyirlər ki, Ankara geridə qalanlarla "işləyəcək" və bunun üçün kifayət qədər üsulları var. Vahid türk əlifbasına keçid təkcə yazı deyil. Bu, ilk növbədə cəmiyyətin ideologiyası, siyasəti, humanitar və sosial səviyyəsidir. Və nəhayət, bu, Türk dövlətləri üçün xüsusi əhəmiyyət kəsb edən yumşaq güc elementidir.Qeyd edək ki, Türk dövlətlərinin birliyi üçün vahid türk əlifbasının tətbiqi vacibdir. Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 10-cu Zirvə Toplantısında çıxışı zamanı deyib. "Birliyimiz üçün dil və ortaq əlifba önəmlidir. Bu məsələdə prezidentlərin dəstəyi vacibdir. Ali Təhsil Şurasımız bu istiqamətdə öz təkliflərini TDT katibliyinə məruzə edib. Ümid edirik ki, bu təkliflər yüksək qiymətləndiriləcək", - deyə R.T. Ərdoğan əlavə edib.Bu ilin 9-11 sentyabr tarixlərində Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunan "Türk Dünyası Ortaq Əlifba Komissiyası"nın üçüncü iclası öz işini uğurla başa çatdırıb. Türk Dövlətləri Təşkilatı tərəfindən təsis olunmuş Türk Dünyası Ortaq Əlifba Komissiyası 34 hərfdən ibarət Ortaq Türk Əlifbasını qəbul edib. Türkiyənin Türk Mədəniyyətini Araşdırma İnstitutunun rəhbəri, məşhur professor Ahmet Bican Ercilasun bunu çox önəmli tarixi hadisə adlandırıb: "Ortaq Türk Əlifbasının qəbulu uzun illər boyunca çəkilən zəhmətin uğurlu nəticəsidir. 1991-ci ilin noyabr ayında İstanbulda Marmara Universitetinin təşkil etdiyi beynəlxalq simpoziumda bu məsələ geniş şəkildə müzakirə edildi və 34 hərfdən ibarət Ortaq Türk Əlifbası layihəsi qəbul olundu. Bu əlifbanın "tək səs üçün tək hərf kimi" prinsipləri var idi. İkincisi, 34 hərfin hamısından istifadə məcburi deyildi, hər türk xalqı özünə uyğun olanları bunun içərisindən götürə bilərdi. Amma hərf sayı 34-ü keçməməli idi. Bunu ilk qəbul edən və latın əlifbasına keçən ilk ölkə Azərbaycan oldu. 1993-cü ildə Türkmənistan ilə Özbəkistan da əlifbaları dəyişdirdi, ancaq orada qəbul edilmiş 34 hərfdən kənara çıxmalar çoxdur".Son tədbirin əvvəlkindən fərqi onun Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu, eyni zamanda Türk Dövlətləri Təşkilatı tərəfindən keçirilməsi, orada bütün qardaş ölkələrin nümayəndələrinin iştirakıdır. Yəni ortada təşkilatda təmsil olunan bütün üzv dövlətlərin ortaq iradəsi, qərarı var. Bu, fəaliyyətin daha da sürətlənməsinə gətirib çıxarır. Dil məsələsi türk dünyasının birliyi, bütün sahələrdə inteqrasiyası və beynəlxalq səviyyədə tanınmada xüsusi rol oynayır. Hələ yolun başındayıq, görüləcək çox iş var. Böyük türk adını İsmayıl bəy Qaspıralının bizə miras qoyduğu "Dildə, fikirdə, işdə birlik" formulunu gerçəkləşdirmək üçün durmadan çalışmaq lazımdır.

***V.VƏLİYEV***

BAXIŞ BUCAĞI

# Gəl, payızım-ZƏFƏR payızım, gəl!..

***Xoş gəlirsən, gəl, payızım. Səni təntənəsiz, təmtəraqsız qarşılamaqmı olar? Ey fəsillər fəsli, mövsümlərin şahı, Zəfər payızım, gəl! Gəl ki, Zəfərimizin ildönümünü bayram edək. Gəl ki, səni minlərimizə laylay edək. Gəl, payızım-Zəfərim. Digər mövsümlərtək çox sevilməyən, lakin 2020-dən hər kəsin sevimlisi fəslim, gəl.***



Sən əvvəllər insanların sevmədiyi xəzan çağı, bağbağçanın solan anı, yaşıl rəngin qənimiydin. Dünənədək ağacların xanı olan yarpaqları xəzəl edib küləklərin ətəyində küçələrdə, dalanlarda o divara, bu divara çırpan idin. Yağışınla, çiskininlə, qara-bozlu buludunla ürəklərə ələm idin. Küçələrdə, bağçalarda islatdığın xəzəlinlə insanların rahatlığın pozan idin-bəddualar fəsli idin. Xəzəlini neçə həftələr toplayıb, ta bezikib ağacların solğunlaşmış yarpaqlarını çırpıb səndən biryolluq qurtarmaq istəyənlərin dillərində qarğış idin...



Az insandı, sənin rənglərində təbiətin hüsnün görən. O min rəngli yarpağında yaşılın hicranın görən. Çox az insandı, xəzəlinin nəğməsini dinləməkçün saatlarla səninlə olan, küçə, dalan, xiyabanları dolanan. Səndən ilham alıb şair, rəssam, bəstəkar, yazar olan. Çox az insandı...

Deyirlər, Allah hər kəsi eyni yaradıb, onlara hər şeyi eyni verib, amma nədənsə biz insanlar bunu anlamaq istəmirik. Daha doğrusu anlamağa çalışmırıq ki, məndə olan səndə bir başqa şəkildədir. Bax, götürək elə səni. Dörd ilədək təbiətin sonu - yaşıl rəngli övladını qoynundan alan, növrağını pozan idin. Amma əslində sən həm də o yaşıla zamanla veriləcək yeni bir həyat idin. Bilindimi qədir-qiymətin? Yox. Yaz bir yandan, yay bir yandan, insanlar da bir yandan tənə etdilər sənə. Üşütdükcə, küləkləri əsdirdikcə, qış xəbərin gətirdikcə sevilməyən fəsil oldun. Bəlkə də acıdı ulu Yaradan, pozdu bərabərliyi aranızda. Səni elə bir zirvəyə qaldırdı ki, fəsillərin şahı, ta bu dünya durduqca zirvələrdən baxan oldun...

Gəl payızım-Zəfərim, payızım-yazım, gəl! Gəl, dörd il əvvəldən, indi səni milyonlarla sevənlərə özündən danış. Otuz illik Qarabağın hicranını vüsal edən o qırx dörd gününün hər anın danış. Gəl, payızım-Zəfər fəslim, Ali Baş Komandanımızın əmrindən, ərənlərin Vətənimin harayına verdikləri haydan danış... İgidlərin başının altına yastıq olan, bir zamanlar sevilməyən xəzəlindən, sənintək heç bir fəslin görmədiyi qandan danış. Torpağımdan, əzəl yurdlarımdan danış. Suqovuşana qovuşmaqdan, Şuşadakı əlbəyaxa döyüşlərdən, göz yaşını otuz il sularına qarışdıran Arazın Xudafərin vüsalından, dünyaya göz dağı olan Məhəmməd Füzulinin adını daşıyandan, Ağdam, Laçın, Kəlbəcərdən-o ellərin hamısından, məşhur Qarabağ atlarından, düz otuz il boynubükük xarıbülbüldən danış.



Düşməni doğma yurdumuzdan qovan, acgözlüyə divan tutan, gəncliyini torpağına qurban verən, anaları qara yaylıq, ataları belibükük, balaları yetim edən, qız-gəlinin gözlərini əbədi bir yola dikən minlərimdən danış...

Sonsuz idin, ana oldun, dörd il öncə, payızım. Minlərimin anası payız, gəl, onlardan danış. Qoynunda laylay deyib torpağa tapşırdığın igid, ərlərimdən danış. Ağlamadın, yağış yağar, əsgərim islanar, xəstə olar, dedin. Yer islanar, palçıq olar, namus, qeyrət, ar davası yarımçıq qalar, dedin. Göz yaşın içinə axdı, ürəyin sızladı, payızım. Sən nə qədər güclüymüşsən... İlahi, tək bir ana gör neçə min oğul verdi qırx dörd gündə torpağa. Bu xəbəri minlərimin uzaqdakı anasına da sən verdin. Hər xəbəri verəndə də nələr çəkdin...

Dağ payızım, dağlı payızım, həm də ki, vüqarlı payızım, gəl, xoş gəlirsən bu ellərə. Qurban sənin əsgər ayağı dəyən, yastıq, yorğan xəzəlinə, igid nəfəsi qarışan nəfəsinə, ərənlərin səninlə son görüşünə. Şəhidinə şahid fəsil, qurban səndə axan qanlara, bağrına çəkilən dağlara, köksündəki yaralara. Qurban sənin otuz ilin həsrətini qırx dörd gündə yox etdiyin ana. Yurd hicranlı qaçqın, köçkün, didərginə açdığın qucağa, kilidli qapılardan qopardığın qıfıllara... Qarabağa gətirdiyin bahara. O bahar ki, otuz ildi, didərgindi Qarabağdan.

Payızıydın, payızında bahar oldun, yaz günəşi kimi doğdun. Minlərlə anadan balasını alsan da, Qarabağı sən qaytardın doğma ana qucağına. "Oğullar Vətənə qurban doğulur. Qoy olsunlar qurban, ta ki torpaq var olsun, yad əllərdə qalmasın" dedin. İgidləri aldın, əvəzində namusumuz, iffətimiz, izzətimiz olan torpağı geri verdin.

44 gündə dünyanı bizimlə birgə heyran etdin. Ölkələr rəhbərimiz ətrafında birliyimizin dəmir yumruq olub düşmən başına endirildiyindən, bu yumruğun otuz ilin sükutunu paramparça etdiyindən danışdılar. Haqqına susduqları haqsızlıq üsyan eyləyib Qarabağ sehrini çözdü. Biz Zəfər qazandıq. Səninlə birgə qalib olduq, payızım. Sən sadəcə payızdın, Zəfər payızı oldun. Fəsillərin şahı oldun. Həm kədərimiz, həm qürurumuz oldun. Elə o üzdən də övladlarını səndə itirən bu Vətənin anaları deyir:

Şalımı al bağlaram,
Qara yox, al bağlaram.
Qarabağda minlərimi
Mən qürurdan ağlaram.

***Mətanət Məmmədova***

# Sizə qız lazımdır?!

FELYETON

***Bəzi feministlər iddia edirlər ki, guya Azərbaycanda qadınlara qarşı ayrı-seçkilik var, onların ictimai həyatda təmsil olunması, iş tapması çətindir və s. Halbuki, vəziyyət tam bunun əksinədir. Şübhə edənlər paytaxt küçələrində və ya internetdə bir qədər gəzişsələr, yanıldıqlarını anlaya bilərlər.***

Mümkün olan bütün yerlərə yapışdırılan, vakansiya saytlarında yerləşdirilən saysız-hesabsız iş elanlarının əksəriyyətinin əsas maraqlı məqamı isə işçilərin cinsiyyəti ilə bağlıdır. Yəni, işverənlərin əsas şərti budur: "Qız tələb olunur!"...

Əvvəlcə, bu tendensiyanın bir müsbət cəhətini qeyd edək- ölkəmizdə gender probleminin olmadığını sübut edən bu elan kağızlarını bürmələyərək həmin feministlərin "gözünə soxa" bilərik. Çünki son zamanlar bəzi beynəlxalq təşkilatların nümayəndələri orda-burda ağızlarını avara qoyub deyinirlər ki, Azərbaycanda gender problemi var, qadın hüquqları pozulur- filan.

Azərbaycan gender bərabərliyi üzrə dünyada nümunəvi ölkələrdəndir. Hətta bizdə qadınların mövqeləri kişilərdən daha üstündür. Bu replikanı gender problemi ilə bağlı iştirak etdiyim beynəlxalq seminarların birində amerikan treynerə tərəf tulladım ki, bəlkə bu modern kovboy səhvini anlaya. Elə beləcə də dedim: "Mister Uill, mənə elə gəlir ki, qadın hüquqlarının ilk bərqərar olduğu ölkələrdən olan Azərbaycanda qadına hörmət və ehtiram çox yüksək səviyyədədir. Bizdə hətta, az qala matriarxal cəmiyyət quruluşudur". (Nə təhər demişəm?!)

Treynerin və seminar iştirakçılarının maraqla dinlədiyini görüb cəsarətləndim və replikanı çıxışa döndərməyə qərar verdim: "Mən indi bunu sizə, Şərif demişkən, "sübutalni, dakumentalnı dakazat eləyərəm". Cəmiyyətimizdə qadınların mövqeyi kişilərdən üstündür. Dövlətimizin 2-ci və 3-cü şəxsi qadındır. Siyasətdə, iqtisadiyyatda, mədəniyyət və incəsənətdə, elm, təhsil və səhiyyədə həmçinin digər sahələrdə də üstünlüyü zərif (burada az qala çaşıb "zəif" deyəcəkdim, son millisaniyədə ortaya r hərfini əlavə edə bildim) cinsin nümayəndələri təşkil edirlər. Məsələn, təhsil, səhiyyə və ticarət sektorlarında qadın kontingenti 80-90%-dən yuxarıdır. Elə bu salondakı iştirakçıların da üçdə ikisi qadındır.

Mister Uill, siz heç Bakıda sərnişin nəqliyyatından istifadə etdinizmi? Gördünüzmü ki, metro vaqonlarında, avtobuslarda sərnişinlərin çoxu qadındır? Bir çox ailələri qadınlar dolandırır. Əksər ailələrdə son sözü qadın deyir.

Azərbaycan az qala yeganə ölkədir ki, nəqliyyatda qadın görən kimi kişilər durub yer verirlər. Mən şəxsən bir kişi olaraq şəhər nəqliyyatında sonuncu dəfə nə vaxt əyləşərək getdiyimi xatırlamıram. Gördüyünüz kimi, bizdə az qala matriarxal cəmiyyətdir".



Təvazökarlıqdan kənar olsa da, qeyd etməliyəm ki, çıxışımı bitirdikdə salonda ruslar demiş- "burnıe oplodismentı!". Amerikalı treyner azərbaycanlı tərcüməçiyə (yeri gəlmişkən, tərcüməçi də qadın idi!) şübhəli nəzərlərlə baxırdı- böyük ehtimalla, mənim sözlərimin ona düzgün çatdırılmadığı qənaətində idi...

Öz aramızda qalsın, dövlət himnimizdə qadın səsinin üstünlük təşkil etdiyi haqda ən tutarlı arqumenti mister Uillə demədim. Üstəlik, bizdə belə bir zərb-məsəl var ki, "arvaddan qorxmayan kişi sayılmır". Amma bunlar misterə deyiləsi söhbətlər deyil.

Nədən danışırdıq, hara gəlib çıxdıq... Hə, deməli, hamı qız, qadın axtarır, oğlanları, kişiləri heç vecinə alan yoxdur. Mən şəxsən bir neçə işverəndən bu cins məsələsinin elanlarda nəyə görə vazkeçilməz şərt olaraq qoyulduğunu soruşsam da, düzəməlli cavab ala bilməmişəm.

Üstəlik, bir çox elanlarda hətta yaş, gözəllik və uyğun fiziki göstəricilər də əsas şərtlər kimi qoyulur. Yəni, təxminən belə- "Şirkətə 18-30 yaşlarında, 90-60-90 ölçülərə malik, sarışın, gözəl görünüşə malik qız işçi tələb olunur. Evli olmaması vacibdir". Nə qədər fikirləşirəm bu şərtlərin niyə vacib olduğunu anlamıram. Bəs, bilik, bacarıq, təcrübə, məsuliyyət kimi xüsusiyyətlər lazım deyil?

Bütün dünyada işçiləri cinsinə görə yox, faydalı iş əmsalına- yəni qabiliyyətinə, biliyinə, bacarığına, təcrübəsinə görə götürürlər. Bizdə isə bu elanların sahiblərinə işçi, mütəxəssis yox, qız lazımdır, qız!

***Elçin Bayramlı***

# Aleksey Fenenko: “Ermənistan tam saziş imzalamasa, Azərbaycan onu məcbur edəcək”

***Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko “Moskva-Baku” portalına müsahibəsində Bakı ilə İrəvan arasında tam həcmli sülh sazişinin imzalanmaması halında Azərbaycanın mümkün addımlarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

**- Aleksey Valeriyeviç, İrəvan sülh sazişinin qısaldılmış variantının imzalanmasında niyə bu qədər israrlıdır?**

- Şeytan həmişə olduğu kimi təfərrüatlardadır. Çünki əslində İrəvan Qarabağ və onun statusu mövzusunu bir daha hansısa formada aktuallaşdırmaq üçün hər zaman hansısa boşluq saxlamaq üçün fürsət tapmağa çalışır.





Paşinyan bununla Ermənistan cəmiyyətinə nümayiş etdirir ki, əslində Qarabağla bağlı məsələ tam bağlanmayıb, hansısa boşluq qalmaqdadır, gec-tez Ermənistan bu məsələni yenidən gündəmə gətirə bilər və proses hələ bitməyib. Onlar elə bir vəziyyətə ümid edirlər ki, Qərb Ermənistana bu işdə kömək edəcək. Ona görə də İrəvan bunu təmin etmək üçün ən ümumi razılaşmanı irəli sürür: bu məsələlər sənəddə yox idi, gəlin yenə də bunun müzakirəsinə qayıdaq.

Paris bu işdə ilk növbədə Ermənistana kömək edir. Burada Fransadakı erməni diasporunun təsiri və Fransanın Ermənistan siyasətinə təsirinin oynadığı rol və Fransanın Ermənistanın nəhayət Rusiyaya qarşı çıxa biləcəyinə olan ümidləri.

ABŞ bu istiqamətdə daha diqqətli davranmağa çalışır. Baxmayaraq ki, son vaxtlar çox yaxşı işləməyib. Amerikanın başqa bir bəyanatını nəzərə alsaq, çox çalışmırlar- USAID nümayəndəsinin Azərbaycanın ötən ilin sentyabrında antiterror tədbirləri ilə bağlı dediklərini. Və dünən Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri bəzi amerikalı rəsmilərin Bakı ilə münasibətləri korlamaq kimi son vaxtlar məşhur tendensiyanı davam etdirməsinə diqqət çəkib.

**- Yerevanın sülh müqaviləsi ilə bağlı mövqeyinə baxmayaraq, Paşinyan dünən Ümumermənі Forumunda dedi ki, biz Türkiyə ilə quru sərhədin açılmasını istəyirik. Müsbət ssenaridə biz Azərbaycandan qaz almağa çalışacağıq. Belə bir-birini təkzib edən bəyanatlar verəndə nəyə arxalanır? Məlumdur ki, Bakı ilə İrəvan arasında sülh müqaviləsi imzalanmasa, Türkiyə Ermənistanla münasibətləri yaxşılaşdırmaq üçün ciddi addımlar atmayacaq. Azərbaycandan qazın alınması isə bu dəqiqə fantaziya kimi görünür...**

- Doğrudanmı Ermənistanın özü Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq üçün nəsə edir? Ermənistan pasportlara Araratın, daha dəqiqi Türkiyənin Ağrı dağının təsviri olan möhür vurmağı dayandırmağa hazırdırmı? İrəvan Ağrıdağ və Van gölünün Türkiyə ərazisi kimi tam və əbədi olaraq tanıyacağını deməyə hazırdırmı? Söhbət Ermənistan Konstitusiyasında, erməni dərsliklərində, erməni şüurunda təkcə Azərbaycana deyil, Türkiyəyə də eyni ərazi iddialarından gedir. Ermənistanda və erməni diasporunda davamlı olaraq bəzi bəyanatlar səslənir ki, Türkiyə və ya Azərbaycan zəifləsə, biz həmişə qisas almağa hazırıq...

Görünən odur ki, dinc bəyanatlar səsləndirən Paşinyan dünya ictimaiyyəti də daxil olmaqla, Ermənistanın konstruktiv olduğu və sülhə hazır olduğu təəssüratı yaratmağa çalışır. Amma bu, açıq-aydın belə deyil.

**- Belə görünür ki, yaxın vaxtlarda Azərbaycanla Ermənistan arasında sülh sazişi bağlanmayacaq, Bakı qısaldılmış sülh sazişini imzalamayacaq, yəni tələyə düşmək riski olmayacaq; O zaman İrəvan hansı sxemi həyata keçirəcək?**

- Bu, Qərbin Ermənistanı dəstəkləməkdə nə qədər irəli gedəcəyindən asılı olacaq. Perspektivlər haqqında danışmaq hələ çətindir. Baxmayaraq ki, görürük ki, həm ABŞ, həm də Fransa müxtəlif bəhanələrlə-demokratiyanın inkişafı, institutların inkişafı və sair ilə İrəvana yavaş-yavaş pul verirlər. İstər siyasi, istərsə də maliyyə dəstəyi daha çox olarsa, Ermənistan özünü daha həyasız və təxribatçı aparacaq. Əgər Ermənistan Qərbin köməyini onun üçün yetərsiz hesab edərsə, o zaman İrəvan Bakı və Moskva ilə bağlı addımlarında və bəyanatlarında daha diqqətli olacaq. Bir gün əvvəl Ermənistanın baş naziri sözün əsl mənasında bəyan etdi ki, İrəvanla KTMT arasında münasibətlərdə dönüş nöqtəsi yaxındır. O, həmçinin belə bir fürsət yaranarsa, Ermənistanın qeyd-şərtsiz Aİ-yə üzv olmağa hazır olduğunu bir daha vurğulayıb. Beləliklə, Qərb təzyiq göstərir. Ermənistanın Aİ-yə daxil olmasına gəlincə... Mən burada nə deyə bilərəm: Ermənistan haradadır, Aİ harada. Ermənistanın Avropa İttifaqı ölkələri ilə vahid ümumi sərhədi yoxdur. Onu orada kim gözləyir?!

*“ABŞ və Fransa müxtəlif bəhanələrlə İrəvana pul verirlər, Bakının isə bu təzyiq cəhdlərinə cavab olaraq Qərbi öz yerinə qoymaq imkanı var, hansı ki, o, hazırda da bunu edir”*



**- Sülh sazişinin imzalanmadığı bu vəziyyətdə Azərbaycan hansı planı seçəcək?**

- Əgər İrəvan tam sülh sazişi imzalamaq istəməsə, Bakı Ermənistana qarşı daha sərt mövqe tutmağa başlayacaq. Azərbaycan Ermənistandan yan keçməklə regional və çoxtərəfli layihələr həyata keçirəcək. Azərbaycan coğrafiyası Türkiyə, Gürcüstan və İran əraziləri ilə marşrutların və ümumiyyətlə, Ermənistandan yan keçən hər şeyin tikintisinə mükəmməl şərait yaradır. Ermənistan isə yenidən təcrid vəziyyətində qalacaq. Bərabər əsasda əməkdaşlıq təklif edildikdə, bu, onun üçün böyük xidmətdir.

**- Bu gün və sabah Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsinin ildönümüdür. Bu gün bununla bağlı açıqlama verən Ermənistan Xarici İşlər Nazirliyi Azərbaycanın antiterror əməliyyatını təcavüz adlandırıb...**

- Təbii ki, orada heç kim bu əməliyyatın məcburi olduğunu və Ermənistanın və Qarabağdakı erməni separatçılarının növbəti təxribatına cavab olduğunu qeyd etmədi. 2020-ci ildə İkinci Qarabağ müharibəsində qələbədən sonra Azərbaycan özünü nəcib apardı. Və özü də təklif etdi ki, Ermənistan dövlətlərarası münasibətlərin qurulması haqqında sülh müqaviləsi bağlasın və iki ölkə arasında yeni, konstruktiv və qarşılıqlı faydalı münasibətlərə başlasın. Görürük: Ermənistanın bu müharibədə uduzan tərəf olmasına baxmayaraq, İrəvan hamını aldadıb və 4 il ərzində Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanata görə, o, öz öhdəliklərini yerinə yetirməyə borclu olduğu bəzi bəndləri yerinə yetirməyib. İndi də bu müqavilənin bəzi dəyişkən mənalarını səsləndirməyə çalışır. Bununla bağlı bəzi öhdəliklərini buraxır, təhrif edir. Ümumiyyətlə, o, siyasi oyun oynayır. Özü üçün nəyisə yaxşılığa doğru dəyişməyə çalışır. Bunu həm Moskva, həm də Bakı görür.

Bu bir daha onu göstərir ki, İrəvan nə deyirsə desin, öz cəmiyyətinə qisas ümidi vermək istəyir. Nə vaxtsa guya Qarabağa qayıdacaqlarını və məsələnin hələ də bağlanmadığını nümayiş etdirmək. Erməni cəmiyyətinə ötürülür: Rusiya bizim “pis” partnyorumuz idi, amma Qərbdə yaxşı partnyorlarımız olacaq və bu halda bizim əlindən alınanı qaytarmaq şansımız olacaq.

Fikrimcə, Qərbin Ermənistanı müdafiə etmək üçün bu aşkar cəhdləri ilə belə, Azərbaycanın İrəvana təzyiqlərini davam etdirmək və təzyiq cəhdlərinə cavab olaraq Qərbi öz yerinə qoymaq imkanı var. Hansı ki, o, hazırda da bunu edir.

Ermənistan İkinci Qarabağ müharibəsində tamamilə məğlub oldu. 4 ildən sonra Ermənistanın hələ də qisas almağa gücü çatmır. Ermənistan cəmiyyəti ciddi məyusluq yaşayır. İrəvan Rusiyadan aldığı təhlükəsizlik zəmanətlərindən uzaqlaşır. Hesab edirəm ki, indi Azərbaycanın Ermənistana qarşı daha sərt mövqe tutmasının və onu sülhə məcbur etməsinin vaxtıdır. Azərbaycan 4 il əvvəl İkinci Qarabağ müharibəsində qalib gəldikdən və bir il əvvəl öz suverenliyini və ərazi bütövlüyünü bərpa etdikdən sonra regionda və beynəlxalq aləmdə getdikcə daha güclü dövlətə çevrilir. Azərbaycan yerində dayanmır. Bu, həqiqətən də dünyanın ən müstəqil ölkələrindən biridir. Amma Ermənistan hər cür təxribata qoşulmağa çalışır.

***Tərcümə - Elçin Bayramlı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Sülh və müharibə: İşıq qaranlığa qalib gələcəkmi?

***Müharibə və sülh bəşəriyyət yaranandan bəri var, onlar cəmiyyətin əsasını təşkil edən və bir-birinə tərs olan vəziyyətlərdir. Tarixçilər deyir ki, təxminən 6000 ildir insanlar bir-biri ilə mütəşəkkil şəkildə döyüşürlər. Sadəcə, əvvəlcə bunu kortəbii edirdilər, qəbilələr, tayfalar, sülalələr münaqişə edirdi, müasir dövrdə isə millətlər, dövlətlər bir-biri ilə daha planlı mübarizə aparırlar. Tədqiqatlar, tarixi araşdırmalar göstərir ki, dünyada indiyədək aparılan real müharibələrin sayı təxminən 14 mindən çoxdur. Qısası, bəşəriyyət mövcud olduğu gündən üzü bəri müharibəsiz bir günü olmayıb.***

**İnsanlar sülh içində yaşamaq yerinə müharibələrdə ölürsə, qurban verirsə, evini, vətənini itirirsə onu buna nə məcbur edir?**

Müharibə insanların sağlamlığına və rifahına dağıdıcı təsir göstərir. Münaqişələrdə ölən insanların sayı xəstəlikdən ölənlərin sayından qat-qat çox olur, müharibələr əlilliyə səbəb olur. Müharibə ailələri məhv edir, uşaqları valideynsiz qoyur. Əslində müharibə gedən dövrdə qeydə alınan ölümlər sadəcə aysberqin görünən hissəsidir, müharibədən sonra həmin ərazilərdə yaşanan yoxsulluq, zəif qidalanma, əlillik, iqtisadi və sosial tənəzzül daha təhlükəlidir. Müharibəyə məruz qalan cəmiyyətlərdə psixoloji xəstəliklər də çox olur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bildirir ki, silahlı münaqişələr yaşanan ölkələrdə insanların 10 faizində ciddi psixi sağlamlıq problemləri yaranır, depressiya, narahatlıq, yuxusuzluq, bel və mədə ağrıları kimi problemlər ən çox rast gəlinən hallardır. Bu narahatlıqlara qadınlar kişilərdən daha çox məruz qalır, xüsusən də uşaqlar və qocalar daha həssas olur.

Müharibələrin yaratdığı faciələrdən biri də köçlərdir. Düşünün, hər il neçə min insane müharibədən qaça bilmək üçün doğma torpağını, evini tərk edir dünyada? Başqa ölkəyə, başqa mədəniyyətə uyğunlaşmaq, üstəlik orada stiqmaya, ayrı-seçkiliyə məruz qalmaq, narahat həyat tərzi, işsizlik, yoxsulluq müharibədən daha çox zərər verir onlara. Psixologiyaları pozulur, davranışları dəyişir, mənəvi-ruhi problemləri yaranır. Unudulmamalıdır ki, müharibə, münaqişə və soyqırımların psixoloji nəticələri həmin cəmiyyət üçün nəsillər boyu



davam edəcək. Tez-tez mətbuata çıxan uşaq və gənclərin bir-birinə qarşı zorakılıq törətmələrində, ailədaxili münaqişələrdə, problemli sosial əlaqələrdə də müharibənin təsirləri var. Müharibə gedən ölkələrdə insanlar reabilitasiya görməlidirlər, daha sağlam gələcək üçün bu şərtdir.

Yeri gəlmişkən, 21 sentyabr Beynəlxalq Sülh Günüdür. Bu gün BMT-nin 30 noyabr 1981-ci il qərarı ilə bütün dünyada qeyd olunur. Dünyanın 192 ölkəsi yekdil olaraq bu qərarın lehinə səs verib. Ümumdünya Sülh Günü müharibə və zorakılığın dağıdıcı təsirlərini anlamaq və bütün anlaşmazlıqların müharibə yerinə sülh yolu ilə həll yollarını tapmağa təşviq edir. Həmin günün gündəmində olan 7 istiqamət var ki, onlar sülhün təmin olunması üçün vacibdir. Bu istiqamətlərdən birincisi sülhün əhəmiyyətinin qeyd edilməsidir, ikinci istiqamət zorakılığa son qoymaq məsələsidir, üçüncü, diplomatiya və danışıqlardır, dördüncü istiqamət, insan hüquqları və ədalətdir, beşinci istiqamət, beynəlxalq əməkdaşlıqdır, altıncı, ən ağrılı məsələ müharibənin dağıdıcı təsirləridir, yeddinci sülhün sosial və iqtisadi faydaları barədə məlumatlılıqdır.

Sülh bütün cəmiyyətlər üçün əmin-amanlıq və təhlükəsizlik deməkdir. Əgər dövlətlər, millətlər arasında qarşılıqlı əmin-amanlıq, etimad varsa ictimai həyat da qaydasında olacaq, mənəvi-ruhi rahatlıq da təmin ediləcək. Sülh insanların bir-biri ilə və ətraf mühitlə harmoniyasıdır, əmin-amanlığın, təhlükəsizliyin və firavanlığın əsas şərti sülhdür. Sülh təminatdır, bolluqdur, aydın səmadır, təhlükəsiz həyatdır, gülən uşaqlardır, qorxusuz-ürküsüz dünyadır.

Amma müharibə... Müharibə sözü həmişə ölüm sözü ilə assosasiya olunur, çünkü müharibələr insan tələfatına səbəb olur, milyonlarla insanı yurdundan didərgin salır və ölkələrin iqtisadiyyatlarını məhv edir. Xatırlayın, I və II Qarabağ Müharibələri bizə nə qədər dağıntıya, tələfata, şəhidə, qaçqın və məcburu köçkünlüyə başa gəldi. Müharibə istəməyən bir ölkə olmasına rəğmən Azərbaycan müharibədə maddi-mənəvi çox qurban verdi.

Dövlətlərin siyasətdə hər addımını "kəsib-biçən", bir qəlibə sığışdıran hüquq elmi deyir ki, mübahisələr, döyüşə əl atılmadan həll edilməlidir. Mahiyyət etibarı ilə, qanun, bütün münaqişələrin sülh yolu ilə, ədalət çərçivəsində həllini doğru hesab edir. Amma insanlar və dövlətlər anlaşa bilməyəndə, mübahisələr böyüyüb münaqişə olanda, millətlər və liderlərin fikri bir-biri ilə ziddiyyət təşkil edəndə qanun kölgədə qalır və müharibə fenomeni ortaya çıxır. Bombalar atılanda, ölkələr dağıdılanda, insanlar öldürüləndə o qanunlar, o hüquqlar qeyb olur, ərazisinə təcavüz edilən dövlətlərin, əhalisi öldürülən ölkələrin haqqını-hüququnu müdafiə edən tapılmır.

Bütün hallarda, bütün millətlər mübahisələrin həllinin müharibə ilə nəticələnməsindən qorxur, siyasi danışıqların effektiv olmasını arzulayır. Çünki bütün müharibələrdə ən çox xalq zərər görür. Amma bir fakt da var ki, müharibə ilə siyasət arasında sıx əlaqə var. Müharibə də siyasət kimi cilddən cildə girə bilir, istiqamət dəyişdirə bilir. Həm siyasətdə, həm də müharibədə uzaqgörən və məntiqli olmaq bir addım öndə olmaq deməkdir. Siyasət ona görə var ki, müharibəyə ehtiyac qalmadan danışıqlarla mübahisələr həll edilsin. Siyasət söz davasıdır, ilk baxışda zərərsizdir. Müharibə silahların davasıdır, yüksək texnologiya, güc kimdədirsə qalib odur. Amma müharibəyə rəvac verən də siyasi ambisiyalardır. Qorxunc silahlarla silahlanan tərəflər, nüvə, kimyəvi, bioloji silahlar və minlərlə kilometr məsafə qət edə bilən ballistik raketlərlə həm dünyaya, həm də insanlara zərər verərək istədiyini əldə edə bilir.

Müharibə heç bir halda dünya üçün faydalı deyil. Müharibə sosial, maddi, ekoloji problemlər deməkdir çünki. Amma o da doğrudur ki, bəzən ədaləti bərqərar etmək üçün qaçınılmaz olan müharibələr var – eynilə Azərbaycanın haqq mübarizəsinin yekunu olan Vətən Müharibəsi kimi. 30 il sülh yolu ilə, danışıqlar və diyasət ilə bu böyük yaranın sağalmasına çalışan Azərbaycan dövləti müharibə etmək istəmirdi, çünki yuxarıda da qeyd etdiyim kimi, əgər sülh şəraitində ölüm sıralıdırsa, oğullar təbii olaraq atalarını dəfn edirsə, müharibə şəraitində bu nizam pozulur, atalar şəhid oğullarını dəfn etməli olur. Bizim dövlətimiz 30 il bu mənzərə olmasın deyə silahlarını susdurdu, siyasət ilə danışdı. Lakin sülh dövründə də susmayan düşmən silahı bizdən çox günahsız canı aldı. Düşmən dayanmadı, durmadı, silahını yerə qoymadı. Hadisələrin



inkişafı II Qarabağ Müharibəsi ilə nəticələndi.

Təmənnamız, diləyimiz, bütün dünya millətlərinin insanpərvər, mehriban, qardaşcasına yaşamağı bacarmasıdır. Amma müşahidələr və tarix göstərir ki, insan övladının başqasının torpağına, azadlığına, haqqına göz dikdiyi müddətcə bu mümkün olmayacaq. Dünyada sülh və bərabərlik bütün dünya insanlarının idealıdır. Bu idealı əlçatan etməli, müharibəli dayandırmalı, sülhü suvarıb böyütməliyik.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
21 sentyabr
2024-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Tələbələr niyə universitetə buraxılmır?

*Bir sıra universitetlərdə hələ də şagirdlərə tələbə bileti verilməyib. Belə ki, onlara müvəqqəti vəsiqənin şəklini çəkərək qapıda mühafizəçilərə göstərmək tapşırılır. O zaman bu qənaətə gəlinir ki, telefonu olmayıb bu şəkli göstərə bilməyən tələbə dərsdən haqsız səbəblərə görə qayıb almalıdır? Bu nə dərəcədə doğrudur? Niyə biletlər vaxtında hazırlanmır? SİA mövzu ilə bağlı elm və təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nurinin fikirlərini öyrənib.*






## EKSPERT TƏNQİD ETDİ

Onun sözlərinə görə, hər il yeni tədris ilinin başlanğıcında ali məktəblərdə bu problem yaşanır: "Biz sosial media resurslarında, böyük səhifələrdə və universitetlərin öz səhifələrində bununla bağlı məsələlərə toxunulduğunu görürük. Xüsusən də əsasən problematik istiqamətli qeydləri oxumuş oluruq.

Anlamaq çətindir. Bu nə böyük bir problemdir ki, hər il müxtəlif universitetlərdə, xüsusən də paytaxt ərazisində yerləşən əsas universitetlərimizdə tələbələr eyni problemi yaşamış olur?! Bu il 55 min 560 gənc yeni tələbə adını qazandı. Onların təbii ki, 90 faizi paytaxtdakı universitetlərdə təhsil alır. Hər birini təbrik edirik. Yəni, hər universitetin payına biraz az, biraz çox tələbələr düşür. Təbii ki biz burada BDU, UNEC, AzMİU, ADPU, ADNSU kimi böyük tələbə kontingenti olanları bir kənara qoyuruq. Digər universitetlər var ki, onların tələbə kəsimi o qədər də böyük deyil. Həmçinin, ora daxil olan 1-ci kurs tələbələrinin sayı yəni kəskin, hətta sayılmaz. Elə bütün universitetlərimizdə, böyük universitetlərimizdə də bu hədd kəskin şəkildə qəbul oluna bilməz. Yəni o tək bu problemi həll etmək, tələbə bileti hazırlanana qədər müəyyən alternativlərə əl atmaq nə dərəcədə çətindir?!

Sizi əmin edirəm ki, burada o qədər də çətin bir şey yoxdur. Bir variantı mən deyirəm. Hər universitetin daxilində hər fakültə 1-ci kurs tələbələrinin bəlli siyahısını mühafizəyə təqdim edir. Sonra həmin tələbələr səhər dərsə gəldikdə siyahı əsasında universitet daxilinə buraxılır, ya da buraxılmır. Yəni bu bu qədər sadədir.

Bunun xeyli vasitəsi ola bilər. İndi hər şey onlayn sistemlərlə həll olunur. Axı biz niyə bu problemi yaşayırıq? Məhz bu problem 15 il bundan əvvəl də var idi. İndi də var. Universitetlərimizdən xahiş edirəm ki, 1-ci kursun tələbələri incidilməsin. Onlar hələ tələbəliyin sevincli çağlarındadırlar. Qarşıda onları ağır akademik illər gözləyir. İndidən onları hər bir detalla yormayaq. Müxtəlif variantlar, metodlar var. Onları mən-siz deyil universitetlər özü fikirləşməlidir. Universitet təhlükəsizliyini yüksək səviyyədə qorumaq istəyirsinizsə lap əla. Biz bunu ikiəlli alqışlayırıq. Belə də lazımdır. Hər bir şəxs yoxlanılaraq universitetin binasından buraxılmalıdır. Amma bəlli sayda, 1-ci kurs tələbələrini çox da yormamaq şərtilə bu prosesdən keçirmək də mümkündür".

***Ayşən Vəli***

# "Əl-Nəsr"ə Ronaldu nəzarət edir?

"Əl-Nəsr"ın baş direktoru Qvido Fienqa hücumçu Kriştianu Ronaldonun kluba təsiri ilə bağlı şayiələrə münasibət bildirib. QOL.az "ESPN"ə istinadən xəbər verir ki, o, bununla əlaqədar deyib: "Kriştiano Ronaldu bizim kapitanımızdır. O, təkcə texniki deyil, həm də davranış baxımından dünyanın ən güclü oyunçusudur. Kriştiano kluba nəzarət etmir. Amma dünyanın ən yaxşı oyunçusu olduğu üçün bizə hara getməli olduğumuzun istiqamətini verir, hansı məqsədlərə çatmaq lazım olduğunu deyir. O, qalibdir və biz ondan bizə qalib olmağı öyrətməsini xahiş edirik.




Bu il onunla qalib gəlmək və hədəfləri-mizə çatmaq istəyirik. Kriştiano komandanın bir hissəsidir və biz onun klubumuzda olmasından çox şadıq".

# Bu gün Bakıda leysan yağacaq - XƏBƏRDARLIQ



***Sentyabrın 21-də Bakıda və rayonlarda yağış yağacağı gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, Bakıda və Abşeron yarımadasında sentyabrın 21-də günün birinci yarısında arabir yağış yağacağı gözlənilir. Səhər yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı ehtimalı var.***

Azərbaycanın rayonlarında sentyabrın 22-si axşamadək fasilələrlə yağıntılı hava şəraiti davam edəcək. Bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə (Naxçıvan MR, Qarabağ və Şərqi-Zəngəzur, Qazax-Gəncə, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi aran, Lənkəran-Astara) leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700